

Anar Ələkbərov

# Mehriban

Bakı - 2014

Mehriban xanım haqqında yazmaq və fikir söyləmək böyük məsuliyyət tələb edir. Bu gün ölkənin ictimai həyatında adı bütün sahələrə nüfuz etmiş birinci xanım barəsində müxtəlif kitablar yazılıb, ölkə daxilində və xaricində onun fəaliyyətini təfərrüatı ilə əks etdirən çoxsaylı materiallar nəşr olunub. Əsasən rəsmi məlumatların yer aldığı bu nəşrlər onun xarakteri, zəngin daxili aləmi, insani keyfiyyətləri barədə, fikrimcə, dolğun təəssürat yaratmır. Bu səbəbdən peşəkar fəaliyyətimin böyük hissəsinin onun adı ilə sıx bağlı olduğunu nəzərə alaraq, bu gün ölkəmizdə xeyirxahlıq rəmzinə çevrilən Mehriban xanım haqqında yazmaq və onun ictimai şüurda formalaşmış bitkin portretinə yeni cizgilər əlavə edərək daxili aləmini təqdim etmək istədim.

Bu illər ərzində mən onun insanlara qayğıkeş münasibətini, vətəndaşların müraciətlərinə, ehtiyaclarına necə diqqətlə yanaşmasını, valideyn qayğısından məhrum olmuş uşaqlara himayədarlıq etdiyini, bir sözlə, böyük ürək sahibi olduğunu gördüm.

O, fəaliyyəti ilə Vətəni və xalqı sevməyi öyrədir, ənənələrin, zəngin mənəvi dəyərlərin cəmiyyətdə möhkəmlənməsinə səy göstərir. Bu gün Mehriban xanımın çoxşaxəli fəaliyyətinə nəzər salan hər kəs xeyirxah işlərin nə qədər vacib olduğunu dərk edərək, həyatını bu prinsiplərə uyğunlaşdırmağa çalışır.

O, öz əməlləri ilə sevilir, insanların hörmətini və etimadını qazanır. Məhz bu sevgi sayəsində o, yalnız ölkənin birinci xanımı Mehriban Əliyeva deyil, hamının əzizi, doğma Mehribanıdır.

Anar Ələkbərov



*Əliyeva Mehriban Arif qızı 1964-cü il avqustun 26-da Bakı şəhərində anadan olub.*

*1982-ci ildə Bakı şəhəri 23 №-li orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.*

*1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib.*

*1988-1992-ci illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib.*

*1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə hal-hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondu təsis olunub.*

*1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədi ilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edib.*

*2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib və həmin vəzifədə özünü gözəl təşkilatçı kimi nümayiş etdirib. Onun beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının bədii gimnastika üzrə dünya kubokunun "A" kateqoriyalı mərhələsinin (2003), Dünya kubokunun (2004), 27-ci Dünya çempionatının (2005), 23-cü (2007), 25-ci (2009) və 30-cu (2014) Avropa çempionatlarının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb.*

*Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədi ilə yaradılmış Heydər Əliyev Fonduna rəhbərlik edir. Heydər Əliyev Fondunun rəsmi açılışı 2004-cü il mayın 10-da keçirilib.*

*2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiri adına layiq görülüb.*

*2004-cü il dekabrın 28-də Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib.*

*2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən partiyanın sədr müavinidir.*

*2005-ci ildə Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən Mehriban Əliyeva "İlin qadını" adına layiq görülüb.*

*2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülüb.*

*2005-ci ildə fəlsəfə elmləri namizədi alimlik dərəcəsi alıb.*

*2005-ci il noyabrın 6-da Milli Məclisə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Əzizbəyov (indiki Xəzər) ikinci seçki dairəsindən irəli sürülmüş Mehriban Əliyeva 92,12% (23106 səs) səs toplayaraq deputat seçilib.*

*Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu ölkəmizin təhsil sisteminin inkişafında xidmətlərinə, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərə, bədii gimnastika üzrə 27-ci dünya çempionatının respublikamızda yüksək səviyyədə hazırlanıb keçirilməsinə, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə görə Mehriban Əliyevanı "2005-ci ilin adamı" elan edib.*

*Mehriban Əliyeva mədəni-mənəvi dəyərlərin qorunub saxlanmasına verdiyi töhfələrə görə 2006-cı ilin martında BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalına layiq görülüb.*

*Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə Mehriban Əliyeva 2006-cı il noyabrın 24-də ISESCO-nun xoşməramlı səfiri adına layiq görülüb.*

*Dünya Səhiyyə Təşkilatı (WHO) İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə Mehriban Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə bu beynəlxalq təşkilatın mükafatına layiq görülüb.*

*Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə 2007-ci ilin mayında Mehriban Əliyeva "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülüb.*

*Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 may tarixli sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Heydər Əliyev Mükafatı ilə təltif edilib.*

*2009-cu il sentyabrın 14-də Azərbaycanla Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Mehriban Əliyeva Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə təltif edilib.*

*2010-cu il fevralın 15-də Mehriban Əliyeva Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə Fransa Respublikası Prezidentinin Sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilib.*

*2010-cu il iyulun 30-da Mehriban Əliyevaya UNESCO-nun "Qızıl Motsart" medalı təqdim edilib.*

*2010-cu il noyabrın 7-də Milli Məclisə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Xəzər ikinci seçki dairəsindən irəli sürülmüş Mehriban Əliyeva 94,49% (31797 səs) səs toplayaraq yenidən deputat seçilib.*

*2011-ci il iyunun 24-də Mehriban Əliyevaya Krans Montana Forumunun Qızıl medalı, 2012-ci il iyunun 29-da isə "Prix de la Fondation" mükafatı təqdim edilib.*

*2012-ci il fevralın 13-də Mehriban Əliyeva Rusiya Federasiyasının İ. M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru adına layiq görülüb.*

*2012-ci il aprelin 13-də Mehriban Əliyevaya MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurası (HƏŞ) və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) tərəfindən "Birlik Ulduzları" dövlətlərarası mükafatı təqdim edilib.*

*2012-ci ildə Mehriban Əliyeva "mərhəmətinə, xeyirxahlığına, xalqların rifahı naminə yorulmaz fəaliyyətinə və kazaklara göstərdiyi köməyə görə" Azərbaycan Kazaklar İttifaqı tərəfindən ali "Kazak şöhrəti" ("Kazatskaya slava") mükafatına layiq görülüb.*

*2013-cü il dekabrın 27-də Mehriban Əliyeva Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı - 2013" mükafatına layiq görülüb.*

*2014-cü ilin mayında Mehriban Əliyeva sivilizasiyalararası dialoqa verdiyi töhfələrə, həmçinin Almaniyada türk dünyasının tanıdılmasına, Azərbaycan-Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatına layiq görülüb.*

*Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə 2014-cü ilin iyununda Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı ilə təltif olunub.*

*2014-cü il avqustun 11-də Mehriban Əliyeva "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edilib.*

*Ailəlidir, iki qızı, bir oğlu, üç nəvəsi var.*





*Ən böyük ləyaqət mənliyini qoruyub saxlamağı bacarmaqdır, şəraitdən, vəziyyətdən asılı olmayaraq özün kimi qalmaq və xeyirxah olmaqdır.*

Mehriban Əliyeva

Adının mənası bütün həyat amalında əks olunan bir sima. Saflıq və mənliyi, səmimilik və xeyirxahlığı, ağıl və peşəkarlığı yüksək dəyərləndirən, yaxşılıq və mərhəməti ümdə anlayışlar kimi qəbul edən bir insan. Zəngin mənəvi və intellektual potensiala malik, təmkinli, düzgün qərar verməyi bacaran bir şəxsiyyət. Qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqəti, fəal həyat mövqeyi ilə yaşından, dini və milli mənsubiyyətindən asılı olmayaraq hər kəsin qəlbinə yol tapmış MEHRİBAN ƏLİYEVA.

Hamı ona hörmət və ehtiramla yanaşır, böyük sevgi bəsləyir. Onu insanlara bəxş etdiyi xeyirxahlığına və qayğıkeşliyinə, başqasının dərdini özününkü kimi hiss etdiyinə görə, göstərdiyi yardım və dəstəyə görə sevirlər. Bunun kökündə onun insani xüsusiyyətləri, xalqımız üçün gördüyü işlər, nəcibliyi və mərhəməti, səxavəti və humanistliyi durur. Sadəliyi, səmimiliyi, təvazökarlığı, insanlara təmənnasız münasibəti Mehriban xanıma olan sevgi və rəğbəti gündən-günə artırır.

O, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, UNESCO-nun xoşməramlı səfiri, ISESCO-nun ilk qadın-xoşməramlı səfiri, Azərbaycan Gimnastika Federasiyasının prezidentidir. Çətin və məsuliyyətli bir yoldadır və bu yolda belə siyasəti mərhəmət və humanistliklə ahəngdar şəkildə birləşdirməyi bacararaq bütün dünyada xoş niyyətlər və xoş məramlar elçisi kimi qəbul edilib.

Ölkənin birinci xanımı olması isə onun atdığı hər bir addımın, verdiyi qərarların məsuliyyətini daha da artırır. Yeri gəlmişkən, Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "birinci xanım" statusunu da məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına birinci xanım ənənəsini gətirmişdir. Müsahibələrinin birində birinci xanım olmaq yükünün nə dərəcədə ağır olduğunu belə izah edir: "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür"[1].

Adətən, hər bir ölkənin birinci xanımı öz ölkəsində elmə, mədəniyyətə və təhsilə diqqət yetirir. Mehriban xanımın diqqətindən kənarda isə heç bir sahə qalmır; o, bütün bilik və bacarığını müxtəlif humanitar təşəbbüslərin reallaşmasına sərf edir. Bunu aydın şəkildə dilə gətirir: "Fikrimcə, vəziyyətindən və statusundan asılı olmayaraq bu və ya digər rolu oynamalı deyilsən və kimliyini saxlamağı bacarmalısan. Mən birinci xanım olmağımı, ilk növbədə, insanların bu və ya digər probleminin həlli üçün obyektiv fürsət kimi dəyərləndirirəm"[2].

Onun atdığı addımlar, həyata keçirdiyi mədəni-ictimai tədbirlər xalqımızın, dövlətimizin inkişafına, dövlətçiliyimizin möhkəmlənməsinə, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasına doğru istiqamətlənib[3].

Bu gün əminliklə söyləyə bilərik ki, Azərbaycanda son illər ərzində formalaşmış birinci xanım institutu dünyanın bir çox ölkələri üçün örnək ola bilər. Mövcud reallıqlar Azərbaycanda birinci xanım faktorunun mahiyyətini bizlərə aydın göstərir. O, xalqına xidməti əsas meyar kimi birinci xanım qismində qəbul etmişdir: "dövlət başçısının xanımı kimi mənim üçün həmişə ən vacibi o olmuşdur ki, mən öz ölkəm üçün nə edə bilərəm"[4].

Onun şəxsində bu status humanist fəaliyyətə, qayğıkeşliyə, hər hansı problemlə qarşılaşan, hansısa məqamda hüquqları pozulan sıravi vətəndaşların ümid yerinə çevrilmişdir. O vətəndaşlar üçün Mehriban Əliyevanın timsalında bir pənah, ümid, mərhəmət, humanizm ünvanı vardır[5]. Sadəliyi və xeyirxahlığı ilə az zamanda bütün Azərbaycanın sevgisini qazandı, amma təkcə bu məmləkətə sığmadı, dünyanın da diqqətini özünə cəlb etdi. Dünya bu zərif, incə xanımın insan sevgisi ilə dolu ürəyinə heyran qaldı, onun təəssübkeşliyi, xeyir-duası, dəstəyi ilə həyata keçirilən qlobal layihələri alqışladı. O, indi dünyada zəif və zərif cinsin ən güclü, ən qüdrətli simalarından biri kimi tanınır və qəbul olunur. O, indi dünyanın ən gənc və sevilən, hörmətlə yanaşılan birinci ledisidir[6].







Ölkə Prezidentini müxtəlif səfərlərdə müşayiət edən birinci xanımın davranışı və görünüşü xarici kütləvi informasiya vasitələri üçün ayrıca müzakirə mövzusu olur. Mehriban xanımın xarici ölkələrdə yaşından asılı olmayaraq hər kəs tərəfindən, hətta uşaqlar tərəfindən tanınmasının dəfələrlə şahidi olmuşam. 2007-ci ilin sentyabr ayında Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya işgüzar səfəri çərçivəsində Heydər Əliyev Fondunun bu ölkədəki nümayəndəliyinin açılış mərasimi idi. Tədbirdə hər iki ölkə prezidentlərinin və onların xanımlarının iştirakı nəzərdə tutulmuşdu. Hər ehtimala qarşı birinci xanımlara gül dəstələri təqdim edəcək gənc rumın qızlarına yaxınlaşaraq protokolda nəzərdə tutulduğu kimi onlardan hansının Azərbaycanın, hansının isə Rumıniyanın birinci xanımına gül dəstəsini verməsini izah etdim və qonaq qismində olan Mehriban xanımı tanıyıb-tanımamaları barədə soruşdum. Hər ikisinin gülümsəyərək, səmimiyyətlə bir ağızdan "Biz öz ölkəmizin birinci xanımını üzdən tanımırıq. Azərbaycanın birinci xanımı öz fəaliyyəti ilə bütün dünyada tanınır, o, həm də çox gözəldir" söyləməsi çox xoş və unudulmaz təəssürat bağışladı.

"Azərbaycanın birinci xanımı" ifadəsi tək Azərbaycan deyil, dünya ictimaiyyəti tərəfindən xeyirxahlıq, humanizm, qayğıkeşlik kimi anlayışlarla bərabər qəbul edilir. İngiltərənin "Capital Finance International" jurnalında Mehriban xanım haqqında dərc olunmuş məqalədə qeyd edildiyi kimi, Mehriban Əliyevanın xarici ölkələrə səfərləri zamanı düşüncələr, insanlar və ürəklər bir araya gəlir, Şərqlə Qərb qovuşur və yaxşı əməllər ortaya çıxır. Bu, təsadüfi deyil. Çünki bu gün Mehriban xanımı dünyada tanıdan əsas amil onun sadəcə Azərbaycanın birinci xanımı olması deyil, onun bu statusun verdiyi imkanlardan yararlanaraq bəşəriyyətə bəxş etdiyi mühüm töhfələridir.





Mənim tanıdığım Mehriban Əliyeva böyük vətənpərvərdir. Mənim üçün o, yüksək mədəniyyət, ziyalılıq, bilik və bacarığını xalqına xidmətə yönəldən vətənpərvərlik simvoludur. Onun təşəbbüsü ilə həyata keçirilən çoxsaylı layihələrin ortaq xətti milli dəyərlərin qorunması və onların ictimai şüurda möhkəmlənməsidir. İrəli sürdüyü hər bir təşəbbüs, rəhbərliyi ilə həyata keçirilən hər bir layihə – istər mədəni irsimizin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, istərsə də gənc nəslin sağlam mühitdə böyüməsi, təhsil və səhiyyə sahəsindəki əvəzsiz xidmətləri milli maraqlara söykənir.

Mehriban Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar və çoxşaxəli fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət məramı dayanır. Azərbaycanın birinci xanımı bir ictimai-iqtisadi formasiyadan digərinə keçidlə bağlı cəmiyyətdə uzun illərdən bəri yığılıb qalan, insanları narahat edən problemləri dəqiq müəyyənləşdirməyə, onların həlli üçün səmərəli tədbirlər planı hazırlamağa və qısa müddətdə maksimum nəticələr əldə etməyə çalışır[7].

İti müşahidəçilik qabiliyyətinə malikdir. Görüşlər, təbdirlər zamanı heç nə diqqətindən kənarda qalmır, illər öncə müşahidə etdiyi hadisəni bütün təfərrüatı ilə xatırlaya bilir. Hər şeyə praqmatik yanaşır, dərindən təhlil edir və düzgün qərar verməyi bacarır. Artıq bir faktı danılmaz həqiqət kimi qəbul etmişəm ki, Mehriban xanımın fəaliyyətində hər şeyin öz vaxtı var. Ən xırda təfərrüatları belə təhlil etmədən qərar vermir. Onun bu keyfiyyətləri olmasaydı, qarşıya çıxan maneələri aradan qaldırmaq, layihələri uğurla həyata keçirmək, təbii ki, mümkün olmazdı.



Yəqin ki, onun kamil şifahi nitqində, çıxışlarında səmimiyyətin nikbinliklə birgə səsləndiyini hər bir insan sezir. Cəsarətlə fikirlərini açıqlayır və hər hansı bir problemin aradan qaldırılmasına yönələn qətiyyətli ifadələr söyləyir. Birinci beynəlxalq rus kitabı festivalının iştirakçıları ilə Heydər Əliyev Fondunda keçirilən görüşdə dünya şöhrətli yazıçı Çingiz Aytmatov Mehriban xanımın söhbətlərini dinlədikdən sonra ona bu sözləri dedi: “Mən bayaqdan Sizinlə söhbət edirəm, Sizə qulaq asıram, öz-özümə düşünürəm ki, rus dilində belə səlis, mənalı, ağıllı çıxışı mən heç zaman eşitməmişəm...”.

Təbiət ona incə yumor hissi və həyatsevərlik kimi nadir sərvətlər bəxş edib. O, hər kəsə nəsib olmayan böyük bir qabiliyyətin – insanları sevmək qabiliyyətinin sahibidir. Bu sevgi qeyri-adi dərəcədə hüdudsuzdur. Həyatda nə edirsə sevgi ilə edir. Mən deyərdim ki, o, insanları sevməklə özünü insanlara sevdirib.

M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunda tibb elminin incəliklərinə dərindən yiyələnmiş, bu sahədəki nəzəri biliklərini uzun illər ərzində əldə etdiyi vərdişlərlə ümumiləşdirərək təcrübəli ictimai xadim kimi formalaşan Mehriban xanım dissertasiya mövzusunda da öz peşəsini – həkimliyi əməli fəaliyyətində əsas tutduğu amillə – humanistliklə əlaqələndirmişdir. Fəlsəfə elmləri namizədi olan Mehriban xanımın dissertasiya mövzusu “Eftanaziya və təbabətdə humanizm problemi” olub: “Mən humanizm tərəfdarıyam və mənin üçün insan həyatı hər şeydən üstündür. Eftanaziya çoxşaxəli bir sahədir. Onun öyrənilməsi bir neçə elmin əsasında mümkündür. Məsələn, fəlsəfə, teologiya, tibb və etika. Bizim hamımızın müəyyən həyat təcrübəmiz var. Lakin heç kəsin ölüm təcrübəsi ola bilməz. Bizim eftanaziya ətrafında fikirlərimiz mövcudluq və qeyri-mövcudluq arasındakı sərhədə yaxınlaşma cəhdindən ibarətdir. Müasir texnologiya ölümü hadisədən prosesə çevirib. İnsanın “bitki” kimi borularla əhatə olunmuş mövcudluğunu həyat adlandırmaq olarmı? Həkimin xoş niyyətini praqmatik qərəzdən necə ayırmaq olar? Burada cavabdan çox sual var. Mən öz işimdə onların bir qisminə cavab verməyə çalışmışam...”[8].




Первый среди
МОДЕРНИЗАЦИЯ
ПЕРВЫЙ МОСКОВСКИЙ ГОСУДАРСТВЕННЫЙ МЕДИЦИНСКИЙ УНИВЕРСИТЕТ
PRIMUS INTER PARES
1758
И.М.СЕЧЕНОВА
ЛИТВИЦКИЙ
ПЕТР ФРАНЦЕВИЧ
Проректор
ГЛЫБОЧКО
ПЕТР ВИТАЛЬЕВИЧ
Ректор





Mehriban Əliyeva onunla ünsiyyətdə olanların yaddaşında yüksək vətəndaşlıq və humanizm mücəssəməsi kimi qalır. O, sadəliyi, səmimiyyəti, yüksək mədəniyyəti, həqiqətpərəstliyi və doğruluğu ilə hamını heyran edir. Mehriban xanım insan qəlbinin dərin bilicisidir. İnsansevərlik sanki onun qanına hopub. Bəlkə də məhz elə bu xüsusiyyətinə görə çətinliklə üzləşən sıravi vətəndaşlar ondan kömək umurlar.

O, hər zamanköməyə ehtiyacı olan insanların yanında olur, onları dəstəkləyir. 2005-ci ilin iyununda Bakı metropoliteninin "Bakı Soveti" (indiki "İçərişəhər") stansiyasında qəza baş vermişdi. Mehriban xanım xəsarət alan insanlara şəxsən baş çəkməyi qərara aldı. Musa Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasını ilk ziyarət edənlərdən biri məhz biz olduq. Bu, heç də Fondun vəzifələrindən asılı olaraq atılmış bir addım deyildi. Bir daxili tələbat olaraq, insanların yardıma ehtiyacı olduğu vaxt onlara mənəvi dəstək olmağı özümüzə borc hesab edirdik. Mehriban xanım həyəcanlı idi. Yaralananların hər birindən ayrı-ayrılıqda hal-əhval tutdu, müalicələrinin gedişi ilə maraqlandı. Onların tezliklə sağalması üçün bütün tədbirlərin görüləcəyini və xərclərin Heydər Əliyev Fondu tərəfindən qarşılanacağını söyləyən Mehriban xanım xəsarət almış insanların doğmalarına səbirli və təmkinli olmağı arzuladı.

Çox təvazökar insandır. Bəzən hər hansı bir xeyriyyə aksiyasını keçirməzdən əvvəl kütləvi informasiya vasitələrinin orada iştirakını sual altına qoyur. Bunun mümkünsüz olması onu bəzən sıxır: "Ömür boyu mənim həyat amalım belə olub ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çarpdırmaq olmaz. İndi mən bundan, demək olar ki, məhrumam. Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm ki, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu, kütləvilik amili məni sıxsa da, yaşayışıma bəzi yeniliklər gətirir və mən bunu olduğu kimi qəbul edirəm. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur"[9].

Ötən əsrdə xalqımızın başına gətirilmiş müsibətlərin bəlkə də ən dəhşətlisi və bənzərsizi olan 20 Yanvar faciəsinin ildönümlərindən biri idi. Ucu-bucağı görünməyən insan seli hər il olduğu kimi, həmin gün də aramla, səbirlə şəhidlərimizin ziyarətgahına doğru irəliləyirdi. Telekameralar usanmadan, matəm musiqisi altında gedən bu prosesi canlı yayımlayırdı. İzdihamın içində ara-sıra tanınmış simalar da gözə dəyirdi, amma axşama az qaldığından ziyarətə gələnlərin böyük əksəriyyəti adi vətəndaşlar idi. Elə bu



vaxt kameraların “nəzərləri” iki qızı ilə sakit-sakit şəhid məzarlarına doğru irəliləyən qara paltarlı kübar bir xanıma dikildi. O anda vətənpərvər tamaşaçının keçirdiyi hisləri “matəm qarışıq sevinc” kimi ifadə etmək olardı. Çünki həmin xanım bir özgəsi deyil, Prezidentin həyat yoldaşı, ölkənin birinci xanımı Mehriban Əliyeva idi. Övladlarını da yanına alıb, xalqının müqəddəs kədərini əlahiddə şəkildə yox, onunla bir yerdə, onunla bərabər hüquqda bölüşməyə gəlmişdi. Bu adi hərəkət Azərbaycan xalqının öz müstəqilliyi, ərazi bütövlüyü uğrunda qurban verdiyi şəhidlərin xatirəsinə dərin ehtiramın bənzərsiz rəmzi məna kəsb edən təzahürü kimi yaddaşlara həkk olundu[10].

Bu, təsadüfi bir addım deyildi. O, hər il 20 Yanvar faciəsinin ildönümündə doğma xalqımızla birgə, bir sırada addımlayaraq şəhidlərin əziz xatirəsinə öz ehtiramını ifadə edir. Faciənin növbəti ildönümlərindən biri yenə də şaxtalı qış gününə təsadüf etmişdi. Heydər Əliyev Fondunun əməkdaşları Şəhidlər xiyabanına keçmək üçün insan axınında təmkinlə öz növbəsini gözləyirdi. Mehriban xanımın da xiyabana gəlməsi həmin vaxta təsadüf etdi. Fondun əməkdaşlarını görən Mehriban xanım bizə yaxınlaşdı və mühafizə xidmətinin təkidlə onun növbədənkənar keçməsini tövsiyə etməsinə baxmayaraq, kollektivin önünə keçib öz növbəsini gözləməyə başladı. Onun ölkəmizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban vermiş mərd mübarizlərin məzarlarını çovğunlu qış günündə xiyabana gələn sadə insanlarla birlikdə ziyarət etməsi hər kəsə böyük qürur hissi yaşatdı.




XOCALI



“Həyatda nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız”[11] söyləyən Mehriban xanım öz həyat kitabını xeyirxah işləri, səmərəli fəaliyyəti, əzmkarlığı, işgüzarlığı, yüksək ideyalarını həyata keçirməklə yazmışdır.

Mehriban xanım insanlara yaxşılıq etməklə cəmiyyətdə sağlam ənənələrin, zəngin əxlaqi dəyərlərin möhkəmlənməsinə çalışır və şəxsi nümunəsi ilə ətrafındakılara yardımsevərlik və mərhəmət hissini aşılayır. Bir hadisəni tez-tez xatırlayıram. 2013-cü ildə Xalq Artisti Şəfiqə Axundovanın xəstəxanaya yerləşdirildiyini biləndə mənə ona baş çəkməyi və müalicəsinə lazımi kömək göstərməyi tapşırdı. Gəlişimə və dəstəyə görə Şəfiqə xanımın gözlərində gördüyüm sevinci, fərəhi və minnətdarlığı sözlə ifadə etmək və unutmaq mümkün deyil. Təəssüf ki, çox keçmədən Şəfiqə xanım dünyasını dəyişdi. O zaman mən bir tərəfdən çox kədərləndim, digər tərəfdən isə insanın köməyə ehtiyacı olduğu vaxtda, lazımi anda onun yanında olduğumuza görə rahatlıq hissi keçirdim.

“Şəfqət, başqasının halına yanmaq, xeyirxah işlər görməyə çalışmaq, qonaqpərvərlik və səxavət kimi keyfiyyətlər həmişə Azərbaycan xalqının ən mühüm həyati dəyərləri olmuşdur və indi də belədir”[12] söyləyən Mehriban Əliyevanın təşəbbüsü ilə müxtəlif sahələrdə həyata keçirilən çoxsaylı layihələr, ilk növbədə, sadə insanlara, qayğıya daha çox ehtiyacı olanlara – valideyn himayəsindən məhrum olmuş uşaqlara, qaçqın və məcburi köçkünlərə, yoxsulluq həddindən aşağı səviyyədə yaşayan adamlara, qocalara və müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara, veteranlara yönəlmişdir. Bütün bunlar onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, yüksək mənəvi məsuliyyətinin təzahürüdür.



*Onu ürəkdən sevirlər. Onu sadəliyinə, səmimiliyinə görə sevirlər. O, çox təbiidir. Axı bu, çox vacibdir, görürsən ki, onda saxtalıq yoxdur. O, çox acı həqiqəti üzə deyəndə də, bu, normal qəbul olunur.*

Arif Paşayev
Milli Aviasiya Akademiyasının
rektoru, akademik

Bu yaxınlarda B.Rayevskinin "Danışan məktub" hekayəsinin motivləri əsasında 1975-ci ildə çəkilmiş eyniadlı qısametrajli filmə baxdım. Yəqin ki, bir çoxlarının ağlına belə gəlməz ki, filmdə fədakar, xoşxasiyyət balaca Validə rolunu Mehriban xanım canlandırıb. Bu qısa və dərin məzmunlu filmdəki rol onun tipajına tam uyğundur, sanki onun xarakteri üçün seçilmiş və onun üçün yazılmışdır. Sənətkarlıqla oynadığı bu kiçik rolu, böyük məharətlə yaratdığı obrazı sanki özününküləşdirərək öz xarakterini yaratmışdır. İnsanlara yardım etmək, böyüklərə diqqət və qayğı göstərmək, yalan danışmamaq – bizim indi tanıdığımız Mehriban xanımın öz həyat yolunda müəyyən etdiyi bütün bu amillər uşaqlığında məharətlə yaratdığı Validə obrazında öz əksini tapmışdır.

Onun uşaqlıqdan bəri qeyri-adi fəallığı ilə seçilməsini, xeyirxahlığı ilə insanların diqqətini cəlb etməsini atası, akademik Arif Paşayev çox maraqlı izah edir: "Mehriban doğulandan çox fəal olub. Bəzən mənə elə gəlirdi ki, o, Nərgizdən böyükdür. Onların uşaqlığını hər anına kimi xatırlayıram. Yadımdadır, Mehribanı hər dəfə məktəbə gətirəndə müəllimlər mənə nəsə bir xoş söz deməyə çalışırdılar. O, elə gözəl idi!.. Biz küçədə gedəndə adamlar ayaq saxlayıb bu balaca qızcığazla görüşər, onu danışdırardılar. Mehriban olduqca xeyirxah insandır. Düşünürəm ki, bu, xüsusi bir xeyirxahlıqdır – mərhəmətlə dolu bu dünyanın sərhədi yoxdur. Bu dünyanın özülü səmimi hisslərlə, insani duyğularla qoyulub. Başqasının kədəri onu elə sarsıdır ki, dərhal əlindən gələn köməyi göstərmək üçün tələsir... Yəqin ki, siz onun uşaqları qucaqlamasını və öpməsini görmüsünüz. Hətta bəzən öz doğma uşaqlarını bu cür qucaqlayıb öpmürsən. Bu, bir göstəri üçün deyil. Bu, onun ürəyindən gəlir və o, həmişə belə olub"[13].







Sadəliyi və səmimiliyi ilə insanların sevgisini qazanıb. Ölkə başçısı ilə regionlara səfər edərkən onlarla görüşə toplaşan insanlarla çox mehriban davranmağı, müraciət edən hər kəsə diqqət göstərməsi, bəzən hətta kənarda dayanmış yaşlı bir insana yaxınlaşaraq hal-əhval tutması bunun əyani sübutudur. Onun adına gün ərzində yüzlərlə məktub daxil olur. İştirak etdiyi bütün tədbirlərdə sadə vətəndaşlarla ünsiyyət qurur, onların problemləri ilə maraqlanır. Müsahibinin kim olmasından asılı olmayaraq hamı ilə dil tapır. Hər kəsi səbir və təmkinlə dinləyir, səmimi bir müdrikliklə faydalı məsləhətlər verir və heç kimi ümidsiz qoymur.

2005-ci ilin aprel ayında Şamaxıya səfər çərçivəsində Şamaxı şəhər internat orta məktəbi ilə tanışlıq zamanı məcburi köçkün ailələri Mehriban xanıma yaxınlaşaraq ondan məskunlaşdıqları yataqxanaya baş çəkməsini xahiş etdilər. Təbii ki, səfər proqramına daxil olmayan bu gözlənilməz təklif təhlükəsizlik baxımından mühafizə xidməti tərəfindən birmənalı olaraq müsbət qarşılanmadı və məndən təkidlə xahiş olundu ki, Mehriban xanıma bu təklifi qəbul etməməyi çatdırım. Onun xasiyyətinə yaxşı bələd olan bir insan kimi, Mehriban xanımın ona üz tutmuş insanlara biganə yanaşmayacağına, əksinə ondan kömək uman hər bir kəsin olduğu kimi, bu insanların da problemlərini dinləyəcəyinə və həllinə çalışacağına əmin olduğumu bildirdim. Əlacsız qalan mühafizə xidməti protokol qaydalarını pozaraq Mehriban xanıma yaxınlaşıb israrla yalnız protokolda nəzərdə tutulmuş obyektləri ziyarət etməyi məsləhət görürdü. O, gülümsəyərək məcburi köçkünlərin əhatəsində, onlarla söhbət edə-edə yataqxanaya doğru getdi. Mehriban xanımın buraya gəlişi onu səbirsizliklə gözləyən insanların, uşaqdan tutmuş ağsaqqallara kimi hər bir kəsin hədsiz sevincinə səbəb oldu. Kim isə öz problemlərini, dərdlərini paylaşmaq üçün, kim isə sadəcə ona olan böyük hörmət, sevgi və ehtiramını ifadə etmək üçün Mehriban xanıma yaxınlaşırdı. O, hamını təmkinlə dinləyir, mövcud problemlərin araşdırılaraq imkan daxilində aradan qaldırılacağını söyləyirdi. Mehriban xanım bu insanların ağır yaşayış şəraitini görüb tezliklə onların məskunlaşdığı binanın tamamilə yeni görkəmə salınacağına söz verdi. Və cəmi bir neçə ay sonra 2006-cı ildə Mehriban xanımın Şamaxıda keçirdiyi növbəti görüş məcburi köçkünlərə sonsuz sevinc bəxş etdi – burada vaxtilə internat məktəbinin yataqxanası olmuş köhnə bina əsaslı şəkildə yenidən qurularaq və zəruri avadanlıqla təchiz edilərək çətin şəraitdə yaşayan gənc məcburi köçkün ailələrinin istifadəsinə verildi.




LOVE
Team













Mehriban xanımın istər valideyn himayəsindən məhrum olmuş uşaqlarla, tənha qocalarla, təhsil, səhiyyə, mədəniyyət işçiləri ilə görüşlərində, istərsə də Heydər Əliyev Fondunda, xarici səfərlərdə təmasda olduğu siyasətçilərlə, elm, mədəniyyət xadimləri ilə ünsiyyətində diqqəti birinci cəlb edən onun təbiətindən, genindən gələn səmimiyyət, ziyalılıq, xeyirxahlıq, insanpərvərlik və nəciblikdir[14].

Mehriban xanımla görüşmək səadəti kimə nəsib olubsa, hamı onun xeyirxahlığını görüb. Onun bütün fəaliyyəti xalqına xidmətin misilsiz nümunəsidir. 2005-ci ilin may ayında Prezident İlham Əliyevin Gəncə və Goranboya səfəri çərçivəsində Mehriban xanım fürsət tapıb buradakı təlim-tərbiyə müəssisələrinə baş çəkdi və mövcud problemlərlə maraqlandı. Bakıya çatar-çatmaz Mehriban xanım həmin müəssisələrə mikroavtobusların və əlil arabalarının çatdırılmasını tapşırdı. O zaman həmin tapşırığı yerinə yetirərkən biz insanların hədsiz sevincinin şahidi olduq və Mehriban xanımın növbəti xeyirxahlıq missiyasında belə bir öhdəliyin üzərimizə düşməsindən qürur duyduq.

İnsanlara daim xeyirxahlıq etmək Mehriban xanımın ən ali məramıdır. Xeyriyyəçiliyin ictimai əhəmiyyətindən danışarkən o, vurğulayır ki, "...xeyriyyəçilik cəmiyyətdə mənəvi-psixoloji ab-havanın yaxşılaşmasına şərait yaradır, insanlar arasında münasibətləri humanistləşdirir, onların daha xeyirxah, səmimi və həssas olmasına müsbət təsir göstərir. Axı çətin məqamda başqalarından dəstək almış insan özü də, imkan daxilində, başqalarına kömək göstərməyə daha çox meyil edəcəkdir. Beləliklə, cəmiyyətimizdə "xeyirxah işlər dairəsi", qarşılıqlı kömək və dəstək sistemi yaranır ki, bu da son nəticədə insanların qarşılıqlı münasibətlərinə, onların ovqatına və sosial əhval-ruhiyyəsinə müsbət təsir göstərir"[15].

2004-cü ilin sentyabrında Moskvada azərbaycanlı ailəsində bir dəfəyə 6 uşaq – üç oğlan, üç qız dünyaya gəlmişdi. Maddi durumu bir o qədər də yaxşı olmayan gənc ailənin Mehriban xanımın tapşırığı ilə mənzillə təmin edilməsi Vətənindən uzaqda olan azərbaycanlı gənclərə böyük sevinc və harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya qayğı və diqqət göstərilməsinin qürurunu yaşatdı.

Hər bir əməli, hər bir işi ilə hamını yaxşılıq etməyə çağıran Mehriban xanım xeyirxahlıq məsələsində fəaliyyətsizliyə vaxt və vəsait çatışmazlığı ilə haqq qazandırmağın düzgün olmadığını bildirir: "Bəzən sadəcə adi insani diqqət və iştirak belə şəxsi ianəyə, şəxsi töhfəyə çevrilə bilər. İnsanın xeyirxah əməlləri isə hökmən bizim həyatımızda yaxşılığın sayının artmasına gətirib çıxaracaqdır"[16].

Müasir anlamda xeyriyyəçiliyin daha geniş məna daşıdığını, cəmiyyətin rifahı naminə hər cür təmənnasız könüllü fəaliyyəti əhatə etdiyini bildirən Mehriban Əliyeva xeyriyyəçiliyi həm konkret fərdlərə və zəif müdafiə olunan qruplara, həm də ictimai həyatın müxtəlif sahələrinin – təhsilin, elmin, mədəniyyətin, incəsənətin inkişafına yönəldilə bildiyini açıqlayaraq, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini də məhz bu prinsipə arxalanaraq qurmuşdur.

Çoxşaxəli fəaliyyətində mərhəmət və humanizm kimi ümumbəşəri prinsiplərə sadiq qalan Mehriban Əliyevanın şəxsiyyətində nəciblik, qayğıkeşlik, insanpərvərlik kimi yüksək mənəvi keyfiyyətlər öz təcəssümünü hər zaman real əməllərdə qabarıq şəkildə büruzə verir. Heydər Əliyev Fondunun prezidentinin istər milli-mənəvi dəyərlərin qorunması və dünyada təbliği, elmin, təhsilin səviyyəsinin yüksəldilməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki-mənəvi sağlamlığının təmini yönümündə gördüyü işlər bunun ən bariz sübutudur[17].

“Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O, öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda, o, üzünü bizim Fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun problemlərinin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq”[18] deyən Mehriban Əliyeva Fondun fəaliyyəti vasitəsi ilə Azərbaycanda xeyriyyəçilik ənənələrini dirçəltdi və müxtəlif təşkilatların, ayrı-ayrı insanların arzularını, güc və imkanlarını bir araya gətirməyə, onların bir məqsədə xidmət etməsinə müvəffəq oldu.

Mehriban xanım ictimai düşüncədə “bir çox sosial problemləri yalnız dövlət həll etməlidir” kimi stereotipi dəyişdirməyə cəhd etdi və cəmiyyətin bütün təbəqələrinin kənar müşahidəçi mövqeyindən konkret fəaliyyətə keçməsinə nail oldu. Bu gün Azərbaycanda xeyriyyəçiliyin dirçəldilməsini Mehriban xanımın fəaliyyətindən kənar təsəvvür etməyin mümkünsüzlüyü ictimai fikirdə birmənalı şəkildə qəbul edilən həqiqətdir.

Ümumiyyətlə, Fondun fəaliyyəti ictimai şüurda möhkəmlənmiş bir çox stereotipləri sındırdı. Yeri gəlmişkən bir faktı da vurğulamaq istərdim. Məlumdur ki, Heydər Əliyev Fondunun həyata keçirdiyi genişmiqyaslı layihələrin öhdəsindən yalnız kollektiv halında cəmləşmiş peşəkar mütəxəssislər gələ bilər. 2004-cü ildə Heydər Əliyev Fondu yaradılarkən Mehriban Əliyevanın rəhbərliyi və bilavasitə iştirakı ilə qısa müddət ərzində təşkilatın hədəfləri, inkişaf strategiyası, dəyərlər sistemi və məqsədli auditoriyası müəyyənləşdirildi və bununla da Fondun gələcəkdə uğurlu fəaliyyətinin möhkəm əsası qoyuldu. “Məsuliyyətli işə yalnız çox təcrübəli insanı götürmək lazımdır” düşüncəsinin mövcud olduğu illərdə Mehriban xanım kollektivə istedadlı gəncləri cəlb etməklə insanların düşüncəsində yeni çevriliş etdi.



*Bu Fond sadəcə böyük bir şəxsiyyətin adının əbədiləşdirilməsi naminə yaradılmış xatirə təşkilatı deyil. Bu, bir sosial qurumdur. Və bu sosial qurumun fəaliyyəti başqa ölkələri də əhatə edir. İdeoloji bir qurum deyil. Bir insanlıq qurumudur. Təhsilin inkişafı, yoxsulluğun aradan qaldırılması üçün çalışan bir təşkilatdır.*

Süleyman Dəmirəl
Türkiyə Respublikasının
9-cu Prezidenti (1993-2000)



Mehriban xanımı ölkə başçısı ilə ictimaiyyət arasında ən mahir əlaqələndirici hesab etmək olar. Onun irəli sürdüyü bir çox təşəbbüslər dövlət və vətəndaş birliyinin təmin edilməsində mühüm rol oynayır. Müxtəlif sahələrdə bir sıra layihələr həyata keçirən Heydər Əliyev Fondunun dövlətin həmin sahələrdə həyata keçirdiyi siyasətin uğurlu nəticələr verməsində böyük töhfəsi var. Bunu Prezident İlham Əliyev bir çox çıxışlarında xüsusi vurğulayıb: "Mehribanın rəhbərliyi ilə bir neçə istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Bir çox hallarda Fondun təşəbbüsləri bir qədər sonra həm ictimai təşkilatlar, eyni zamanda, dövlət qurumları tərəfindən dəstəklənmiş və bir növ dövlət proqramına çevrilmişdir. Xüsusilə Fondun təşəbbüsü ilə başlanmış "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu gün geniş vüsət almışdır və dövlət bu proqrama qoşularaq son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikdirə bilmişdir. "Xocalıya ədalət!" kampaniyası da məhz Fondun təşəbbüsü ilə başlamışdır. Ondan sonra dövlət qurumları, ictimai qurumlar bu təşəbbüsə qoşulmuşlar və nəticə etibarilə qısa müddət ərzində 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi qəbul etmişdir"[19].

Mehriban xanım, əsasən, gələcəyə hesablanmış addımlar atmağı bacarır və Fondun fəaliyyətini də cəmiyyətin olduqca həssas problemlərinin aradan qaldırılmasına yönəldir. Bu gün biz istənilən sahədə Mehriban xanımın nəcib əməllərinin xoş nəticələri ilə rastlaşırıq. Bu, yüz mindən çox şagirdin təhsil şəraitinin yaxşılaşmasına xidmət edən yüzlərlə yeni məktəb binasının istifadəyə verilməsi, valideyn himayəsindən məhrum olmuş uşaqlara diqqət və qayğının göstərilməsi, müasir avadanlıqla təchiz edilmiş yeni tibb mərkəzlərinin inşası, gənc istedadların dəstəklənməsi, tarixi abidələrin bərpası, qədim mədəniyyət və incəsənətimizin təbliği və nəhayət, Azərbaycanın dünyaya əsrlər boyu formalaşmış tolerantlıq ənənələrinin qorunub saxlanıldığı dünyəvi bir ölkə kimi tanıdılmasıdır.



*Beynəlxalq təşkilatların, milli hökumətlərin, maliyyə qurumlarının, bütün xoşməramlı insanların, uşaqların taleyinə, ayrılıqda hər bir uşağın taleyinə biganə olmayan bütün insanların səylərini birləşdirmək lazımdır.*

Mehriban Əliyeva



Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətində uşaqlara qayğı mövzusu daim həlledici yer tutub, əsas qayəsini və məzmununu təşkil edib. Onun uşaqlara sevgisi hüdudsuzdur. İndi bütün uşaqlar bu sevgini və qayğını hiss edirlər. Təsadüfi deyil ki, Heydər Əliyev Fondunun əksər layihələri, istər təhsil sahəsində, istər səhiyyə sahəsində məhz uşaqlara yönəlmişdir. Bu layihələrə o, xüsusi can yandırır, ürəklə yanaşır. Uşaqlar da onu fərqli məhəbbətlə sevirlər. Fonda göndərilən çoxsaylı məktublar, üzərində Mehriban xanımın adı həkk olunmuş müxtəlif əl işləri, onun məharətlə çəkilmiş portretləri - bütün bunların vasitəsi ilə uşaqlar ona öz sevgisini nümayiş etdirirlər.

Çox sadə istəyi var. O, bütün uşaqları xoşbəxt görmək istəyir. İnsanları uşaqlara daim qayğı göstərməyə, onları qorumağa, müdafiə etməyə, cəmiyyətin fəal iştirakçısı, fəal üzvü etməyə çağırır. Bütün çıxışlarında bunu dilə gətirir. İstəyir ki, heç bir uşaq valideyn qayğısından məhrum olmasın, ağır xəstəliklərdən əziyyət çəkməsin, hər bir uşaq doğmalarının əhatəsində sağlam böyüsün və onun yaddaşında dərin iz qoyacaq problemlərlə üzləşməsin. Onların əsl vətənpərvər, Vətənini və onun ənənələrini sevən və hörmət edən layiqli vətəndaş kimi böyüməsini istəyir: "Mənim arzum odur ki, Azərbaycanda hər bir uşaq xoşbəxt olsun. Ona görə də biz sizləri-bizim uşaqlarımızı, balalarımızı məhəbbətlə, hörmətlə, mərhəmətlə, diqqətlə böyütməliyik. Aydındır ki, siz hələ həyatınızın başlanğıcındasınız. Hər birinizin qarşınızda böyük yol, böyük həyat var. Bu həyatda, bu yolda sevinclə, xoş anlarla, qələbələrlə yanaşı, sizi çətinliklər də, problemlər də gözləyir. Ona görə də bu gün biz böyüklər sizi elə böyütmək istəyirik ki, sizə elə tərbiyə vermək istəyirik ki, sabah əsl insan, əsl vətəndaş, əsl şəxsiyyət olasınız"[20].











Təhsil müəssisələri, uşaq evləri və internatların monitorinqini apardığımız günləri xatırlayıram. Mehriban xanım bu müəssisələrə şəxsən baş çəkirdi, mövcud problemlərlə maraqlanırdı, problemlər isə, əlbəttə ki, az deyildi. Uşaqların təhsil və tərbiyə aldığı şərait – standartlara cavab verməyən sanitar-gigiyenik vəziyyət, qida məhsullarının çatışmazlığı, istilik sisteminin yararsız vəziyyəti, akt və idman zallarının yoxluğu bizi çox sarsıtmışdı. Vəziyyət heç də ürəkaçan deyildi. Məktəblərin birində sinif otağının tavanı bir dirəkdə güclə dayanmışdı. Bəzi müəssisələrdə tavanın damması səbəbindən bizə çətirlə gəzməyi məsləhət görürdülər; demək olar ki, dam örtüyü yox idi. Bir sıra ucqar rayonlarda məktəblər yararsız vəziyyətdə olduğundan bağlanmışdı. Bu və bir çox digər amillər bizdə bəzən çarəsizlik hissi yaradırdı.

Qarşımızda mürəkkəb problemlərin həlli və təhsildə, valideyn himayəsindən məhrum olmuş uşaqların tərbiyə olunduğu uşaq evləri və internat məktəblərində köklü dəyişikliklərə nail olmaq kimi hədəf dururdu. Bir-birindən fərqli iki layihəyə start verildi: "Uşaq evləri və internat məktəblərinin inkişafı" və "Yeniləşən Azərbaycana yeni məktəb". Hər ikisinin məsuliyyətini dərk edir və hər ikisini yüksək səviyyədə həyata keçirməyə çalışırdıq.

Müasir dünyada hər bir ölkənin inkişafında, onun dünya birliyinə inteqrasiyasında təhsilin əvəzsiz rolu olduğunu söyləyən Mehriban xanım "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının müzakirəsinə həsr olunmuş dəyirmi masada çıxışı zamanı təhsildə olan problemlərə cəmiyyətin diqqətini cəlb etmək məqsədi ilə ölkəmizdə fəaliyyət göstərən iş adamlarına, sahibkarlara, yerli və xarici şirkətlərə, qeyri-hökumət təşkilat-









larına, diplomatik korpusa müraciət edərək onları mövcud problemlərin həllində fəal iştiraka dəvət etdi. Onun fikrincə, dövlət və filantropiyaya cəlb edilmiş vətəndaşlar və özəl sektor öz aralarında əlaqəli şəkildə işləsələr, bu, daha çox səmərə verə bilər. Çox az vaxt müddətində bu təklif ölkədə böyük əks-səda doğurdu. Mehriban xanım bu addımı ilə Azərbaycanda həm dövlət strukturlarına, həm ictimai təşkilatlara, həm də özəl müəssisələrə birgə layihələr həyata keçirmək üçün yeni mexanizm yaratmaq imkanı verdi. Onun bu addımı müxtəlif qurumların ümumi ideyaya – xalqa xidmət ideyasına işləyən təmas nöqtələrini tapdı və təcrübə göstərdi ki, ölkədə təmənnasız yardım etməyə, bu və ya digər sektorun inkişafına dəstək olmağa hazır olan çox insan var.

Layihə çərçivəsində ölkəmizin müxtəlif rayonlarında inşaat işlərinin gedişi ilə şəxsən tanış olurdu. Mütəxəssislərin, yerli camaatın, müəllimlərin, şagirdlərin fikir və təkliflərini dinləyirdi. İllər öncə inşa olunmuş və yararsız vəziyyətə düşmüş təhsil müəssisələri yeniləri ilə əvəz olundu, ölkəmizin ən ucqar bölgələrində yeni məktəblər inşa edildi. Nəticədə, iki mərhələdə həyata keçirilən bu layihə 100 mindən artıq şagirdə Fondun təşəbbüsü ilə tikilmiş və bərpa edilmiş 412 məktəbdə təhsil almaq imkanı verdi. Hər bir yeni məktəbdə idman meydançası yaradıldı, kompyuter sinifləri açıldı, üzgüçülük hovuzları tikildi, məktəb kitabxanaları müasir avadanlıqla, müxtəlif dərsliklərlə və ədəbiyyatla təmin edildi. Mehriban xanımın təşəbbüsü ilə reallaşan layihə Azərbaycan dövləti tərəfindən dəstəkləndi və 10 il ərzində Azərbaycanda 2700 yeni məktəb binası tikildi və ya təmir olundu.


"Təhsil hər bir dövlətin, ölkənin,
cəmiyyətin həyatının, fəaliyyətinin
mühüm bir sahəsidir".
Heydər Əliyev


"Biz çox istəyirik ki, gənc nəsil
dünyanın ən müasir standartlarına
şəraitdə oxusun, bilikli,
İlham





*Siz Azərbaycanın ən yaxşı səfirisiniz, eyni zamanda, Siz dünyada bütün qadınlar üçün gözəl nümunəsiniz. Ölkənizin maraqları naminə gərgin fəaliyyət aparırsınız, həmçinin parlamentdə fəal iş görürsünüz. ...Eyni zamanda, Siz mədəni müxtəlifliyin təşviq edilməsində şəxsən iştirak edirsiniz. Siz Fransanın böyük dostusunuz.*

Nikola Sarkozi
Fransa Prezidenti (2007-2012)

Ümumiyyətlə, elm və təhsil Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin əsasını təşkil edən önəmli cəhət kimi bütün dünyada rəğbətlə qarşılanır. Onun təşəbbüsü ilə Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada bir sıra məktəblər yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur. Mehriban xanımın bu istiqamətdə fəaliyyəti təkcə təhsilin inkişafına deyil, ayrı-ayrı ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edir. Azərbaycanda fransız liseyinin inşası buna əyani sübutdur.



2005-ci il oktyabrın 8-də Pakistanda çoxsaylı insan tələfatına və böyük dağıntılara səbəb olan güclü zəlzələ baş vermişdi. Təbii fəlakət ölkə ərazisinin yarıdan çoxunu əhatə etmiş, paytaxt İslamabadda, Lahorda, xüsusilə Müzəffərabad şəhərində güclü dağıntılar törətmişdi. Baş verən zəlzələ nəticəsində Müzəffərabad şəhəri Rara ərazisindəki məktəb tam yararsız vəziyyətə düşmüşdü. Sinif otaqları uşaqların dərs keçməsi üçün təhlükəli vəziyyət almışdı. Ağır şəraitə baxmayaraq, uşaqlar təhsil almağı çox istəyirdilər, onlar ya açıq səma altında, ya da çadırlarda dərs keçmək məcburiyyətində qalmışdılar.

2007-ci il aprelin 3-də Parisdə keçirilən UNESCO-nun xoşməramlı səfirlərinin ənənəvi illik yığıncağında Mehriban xanım öz çıxışında dağılmış məktəbin yerində bir il ərzində yeni məktəb inşa edilərək istifadəyə veriləcəyini bəyan etdi. Mehriban xanımın tapşırığı ilə məktəb binasının ağır konstruksiyadan inşası üçün tender elan olundu. Qısa müddət ərzində çətin dağlıq relyefdə yeni təhsil ocağının inşa olunaraq istifadəyə verilməsi Pakistan xalqı tərəfindən minnətdarlıqla qarşılandı: "Qızlar üçün orta məktəbin inşa edilməsi üçün layihə seçimi özü də çox məsuliyyətli iş idi. Layihəni qısa zamanda hazırlayan Fond cəmiyyətin inkişafı üçün ən vacib amillərdən olan qadınların təhsili vasitəsilə xalqın inkişafına daha bir imkan vermiş oldu... Pakistan xalqı ölkədə baş vermiş zəlzələnin ağır nəticələrini yüksək səviyyələrdə müzakirəyə çıxardığına və Parisdə UNESCO-nun qərargahında Pakistanda bərpa işlərini təşviq edərək, xüsusi təqdimatla çıxış etdiyinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya sonsuz təşəkkürünü ifadə edir"[21].

Heydər Əliyev Fondunun təbii fəlakətlərdən zərər çəkmiş ölkələrə yardımı təkcə Pakistanda həyata keçirilmiş layihə ilə məhdudlaşmır. Mehriban xanımın tapşırığı ilə Fond təbii fəlakətlərin, o cümlədən Rumıniyada daşqın, qar və çovğunların, Haitidə, İranın Van vilayətində zəlzələnin aradan qaldırılmasında yaxından iştirak edərək bu ölkələrə yardım edib.

Uşaqların kiçik yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması məktəbəqədər təhsil müəssisələrində formalaşdığını söyləyən Mehriban xanım təhsilin bu sektorunda mövcud olan problemlərə diqqəti yönəltmək məqsədi ilə 2014-cü ildə "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramının təqdimatını keçirdi.
















“Uşaq evləri və internat məktəblərinin inkişafı” layihəsi bizə Mehriban Əliyevanın hər bir işə, hər bir yeni layihəyə çox diqqətlə yanaşmasını, bütün qabiliyyətini və daxilən tükənməz enerjisini həmin layihəyə sərf etməsini bir daha göstərdi. O, böyük bir ürək sahibidir və bu böyüklükdən irəli gələn sevgi və nəvazişdən rastlaşdığı hər bir uşağa ayırmağı unutmur, insanları da bu nəcib təşəbbüsə səsləyir: “Fondun daim diqqət mərkəzində olan layihələri ölkəmizdə mövcud olan internat məktəbləri və uşaq evlərinin fəaliyyəti ilə bağlıdır. Bu müəssisələrin maddi-texniki bazalarının yenidən qurulması ilə yanaşı, biz çalışırıq kimsəsiz uşaqlara mənəvi dayaq olaq, onlar üçün bir növ ailə mühiti yaradaq. Artıq mən deyə bilərəm ki, bütün bu uşaqlar bizim üçün əziz və doğma olublar, biz mütəmadi olaraq onlarla görüşürük və bu gün mən bütün cəmiyyətimizi bu problemə diqqət yetirməyə çağırıram”[22] .


3 SAYLI UŞAQ


NTERNAT EVİ







Mehriban xanım və onun qızları Leyla və Arzunun valideyn himayəsindən məhrum olmuş uşaqlara həssas münasibəti həmişə açıq-aydın hiss olunub. Onların 2004-cü ilin sonlarından uşaq evləri və internat məktəblərinə başlayan ziyarətləri, kimsəsiz və ya xəstə uşaqlara göstərdiyi diqqət və qayğı cəmiyyətdə yeni ənənənin əsasını qoymuş oldu – indi insanlar, müxtəlif qurumların, o cümlədən beynəlxalq təşkilatların nümayəndələri reklam xatirinə deyil, insansevərlik nöqteyi-nəzərindən çıxış edərək davamlı olaraq bu müəssisələri ziyarət edir.

2004-cü ildə Mehriban xanımın əqli və fiziki cəhətdən zəif uşaqlar üçün internat məktəbində olarkən uşaqlarla ünsiyyət qurmasının, onlara nəvaziş göstərməsinin, ona sarılan körpələri qucaqlayıb öpməsinin – bütün bu səmimi hislərin şahidi olan müəssisə işçiləri təəccübünü gizlədə bilmirdilər. Mehriban xanımın belə davranışları ilk zamanlar mühafizə xidmətini də çaşqınlığa salmışdı. Onlar belə olan təqdirdə nə cür hərəkət edəcəklərinə – uşaqları Mehriban xanımın yanına buraxıb-buraxmamağa qərar verə bilmirdilər. Bu gün isə artıq hər bir kəs aydın bilir ki, əqli və ya fiziki cəhətdən sağlam olub-olmamasından asılı olmayaraq Mehriban xanım hər bir uşağın simasında gələcəyin böyük azərbaycanlısını görür və hər bir uşağa əsl ana nəvazişi göstərir.



*Mehriban Əliyevanın fəaliyyəti yüksək insani özünüdərkə, alicənablığa, niyyətlərin paklığına nümunədir.*

Qraf Pyotr Şeremetyev
"Yüzilliyin mesenatı" Beynəlxalq Fondu İdarə Heyətinin üzvü



Uşaqlarımızın xoşbəxt gələcəyi üçün əlindən gələni əsirgəməyən Mehriban Əliyevanın təşəbbüsü və şəxsi iştirakı ilə hər il Yeni il ərəfəsində müxtəlif orta məktəblərin təhsildə fərqlənən şagirdləri, uşaq evləri və internat məktəblərində tərbiyə alan, qaçqın və məcburi köçkün ailəsindən olan, valideyn himayəsindən məhrum uşaqlar üçün şənliklər təşkil edilir.









O, taleyi tərəfindən sərt sınaqlara çəkilmiş bu uşaqların həyat şəraitinin yaxşılaşdırılması üçün hər şey edir. Mehriban xanımın uşaq evlərindəki körpələrlə görüşlərdən sonra qəlbində kədərli hislərin baş qaldırdığının dəfələrlə şahidi olmuşam. Uşaq evləri və internat məktəblərini ziyarət edərkən hər bir xırdalıqlara fikir verir, mütləq mətbəxə baş çəkir, uşaqların qidalanması ilə maraqlanır, bütün şəraiti nəzərdən keçirir. Hər bir uşağa əsl ana nəvazişi və qayğısı göstərir. Mehriban xanımın məhəbbəti uşaqlara çox şey verib. Bu gün valideyn himayəsindən məhrum olmuş və uşaq evlərində tərbiyə alan uşaqlar onun sayəsində qayğı və diqqətlə əhatə olunub, onlar üçün sözün əsl mənasında ailə mühiti yaradılıb.

2005-ci ildə onun köməyi ilə internat məktəbində böyüyüb təlim-tərbiyə almış gənclərin toy mərasiminin keçirilməsi, Mehriban xanımın da yeni ailə quranlarla, 18 ildən çox onların qayğısını çəkən məktəbin müəllim və tərbiyəçiləri, daimi sakinləri ilə birlikdə ana səmimiyyəti ilə şənlənməsi o vaxt hər kəsdə xoş ovqat, sonsuz sevinc hisləri doğurmuş, müstəqil həyata qədəm qoyan gənclər üçün unudulmaz xatirəyə çevrilmişdi.

"Valideyn himayəsindən məhrum olmuş uşaqların taleyi, gələcəyi dövlət orqanlarının fəaliyyəti ilə yanaşı, beynəlxalq qurumların, qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyəti təşkilatlarının, bizim hər birimizin fəallığından asılıdır"[23] söyləyən Mehriban xanım bu uşaqların taleyi ilə daim maraqlanır, onların cəmiyyətdə layiqli yer tutması üçün şərait yaradır. Onun təşəbbüsü ilə 2009-cu ildə Bakıda uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün, 2013-cü ildə isə uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün yaşayış binalarının istifadəyə verilməsi indiyədək bu sahədə mövcud olan çətinliklərin aradan qaldırılmasında mühüm rol oynadı. Onun yüksək insani keyfiyyətlərindən xəbər verən bu addımları insanlarda böyük rəğbət və minnətdarlıq hisləri doğurur.



*Həkimlik xüsusi peşədir. Bu, ruh və qəlb peşəsidir. Bu, dərdə şərik olmaq və şəfqət elmidir. Bu, insanların halına yanmaq, ehtiyacı olanlara əl uzatmaq peşəsidir. Bu, altruizmdir. Mənim həyatım elə gətirib ki, artıq çoxdandır öz peşəmlə məşğul olmuram. Amma fəaliyyətimin hər bir sahəsində, xüsusən də Heydər Əliyev Fondunun prezidenti vəzifəsində mən məhz bu prinsiplərə, bu əsasa arxalanmağa çalışıram.*

Mehriban Əliyeva

Şəfqət onun xarakterinin nəzərəçarpan xüsusiyyətidir. Tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, insanların, xüsusilə də uşaqların sağlamlığı və əmin-amanlığı Mehriban xanımın xüsusi diqqət ayırdığı mövzudur. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ildə Fransaya ilk rəsmi səfəri çərçivəsində Mehriban xanım hər hansı mədəniyyət ocağını deyil, Parisin ən qədim uşaq müalicə ocaqlarından birini - ”Nekyap” xəstəxanasını ziyarət etmiş, Azərbaycanın bu klinika ilə əlaqələrinin yaranması zərurətini, talassemiyadan və digər xəstəliklərdən əziyyət çəkən azərbaycanlı uşaqların bu xəstəxanada müalicə və reabilitasiya imkanlarının nəzərdən keçirilməsinin vacibliyini vurğulamışdır.

Mehriban xanım səhiyyə sahəsində mövcud olan problemləri ortaya çıxardaraq ictimaiyyəti həmin problemlərin həlli istiqamətində səfərbər etməyə, tibbi yardıma ehtiyacı olan insanlara yüksək həssaslıqla yanaşmağa çalışır. “Tibb işçisi kimi gözəl başa düşürəm ki, psixi və fiziki qüsurları olan uşaqlar yalnız nəticədir, çox mürəkkəb ictimai proseslər zəncirində axırıncı həlqədir. Bunun arxasında yoxsulluq, zərərli adətlər və bəzən də, sadəcə müəyyən zəruri tibbi biliklərin yoxluğu dayanır. Bütün bunlar uzunmüddətli proqramların gerçəkləşdirilməsini tələb edir. Biz reallaşdırılması illərlə çəkəcək layihələrdən qorxmuruq, lakin, eyni zamanda, gözəl anlayırıq ki, bizdən ani tezliklə yardım və fayda gözləyirlər. Bütün bunları vəhdət halında birləşdirmək mürəkkəb vəzifədir, lakin, necə deyərlər, yolun öhdəsindən yolçu gələr”[24].









O, heç bir müraciətə biganə qalmır və əgər söhbət uşaqların sağlamlığından gedirsə həmin məsələni öz nəzarətinə götürür. “Xəstəlik böyük-kiçik tanımasa da, uşaqların əzabı daha ağrıdıcıdır”[25] söyləyən Mehriban Əliyevanın ağır xəstəliklərdən əziyyət çəkən uşaqlara həssas münasibəti onun əvvəlcə 2004-cü ildə “Diabetli uşaqlara ən yüksək qayğı”, daha sonra isə 2005-ci ildə “Talassemiyasız həyat naminə kimi” genişmiqyaslı layihələrə imza atmasına səbəb oldu.

Uğurla həyata keçirilən layihələr Şəkərli diabet üzrə Dövlət Proqramı və Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramına xüsusi dəstək olaraq respublikada şəkərli diabet xəstələrinin zəruri preparat və müayinələrlə təminatında, Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasında, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün könüllü donor xidmətinin inkişaf etdirilməsində, talassemiyanın yayılmasının qarşısını almaqdan ötrü əhalinin maarifləndirilməsində və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsində dönüş yaranmasına kömək etmişdir.

Müxtəlif ürək-damar xəstəliklərindən, o cümlədən ürək çatışmazlığından əziyyət çəkən, dayaq-hərəkət aparatı problemləri olan uşaqlara kömək layihələri, bölgələrdə mütəmadi olaraq aparılan peyvəndləşdirmə, qanvermə aksiyaları insanlar tərəfindən əsl şəfqət və mərhəmət nümunəsi kimi qəbul edilir. Psixonevroloji uşaq evi, Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqlar üçün Reabilitasiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin istifadəyə verilməsi konkret xəstəlikdən əziyyət çəkən uşaqların ixtisaslaşdırılmış tibb müəssisələrində müalicə almalarına kömək etdi.







Təmənnasız xeyirxahlıq onun həyat tərzidir. O, bunu belə izah edir: "Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir"[26].

Onun yenidən sağlamlığa qovuşdurduğu on minlərlə insanın içində xalqımızın sevimli simaları olan neçə-neçə mədəniyyət və incəsənət xadimləri var – Alim Qasımov, Ağaxan Abdullayev, Rafiq Hüseynov və bir çox başqaları. 2013-cü ildə istirahət zamanı hovuzda üzərkən faciəvi surətdə iki ayağını itirən azyaşlı İmran Cəfərovun Almaniyaya göndərilməsi təşəbbüsü də Mehriban xanım tərəfindən irəli sürülmüşdü. Balaca İmranın Almaniyada olduğu müddət ərzində Mehriban xanım dəfələrlə onun müalicəsinin gedişi ilə maraqlanırdı. Hamının səbirsizliklə gözlədiyi xəbər – müalicəsi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən şəxsi nəzarətə götürülmüş İmranın Vətənə qayıtması Mehriban xanımın həqiqətən də hədsiz sevincinə səbəb oldu.

O, özündən asılı olmayan səbəblər üzündən kiməsə yardım edə bilməyəndə çox təəssüflənir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun (ind. Azərbaycan Mədəniyyət Fondu) direktoru İbrahim Quliyevin vaxtsız vəfatı onu çox sarsıtmışdı. Neçə-neçə insanı sağlam həyata qaytarmış Mehriban xanımın rəhbərliyi altında işləyən bir insanın öz problemləri ilə onu qayğılandırmamaqdan ötrü heç kimə xəbər vermədən müalicə olunması səylərinin boşa çıxması onu çox üzmüşdü. Onun vəfatı ilə bağlı sarsıdıcı xəbəri eşidəndə Mehriban xanımın söylədiyi də məhz bu kəlmələr oldu: "Biz neçə-neçə insanlara kömək edirik, nə qədər insanı sağlamlığına qovuşdururuq, amma İbrahimi xilas edə bilmədik...".

Bir neçə il bundan əvvəl sosial şəbəkələr vasitəsi ilə balaca Əlinin (Əli Saqi) müalicəsi üçün vəsait yığıldığını öyrənən Mehriban xanım dərhal uşağın müalicəsi ilə bağlı bütün xərclərin Heydər Əliyev Fondu tərəfindən qarşılanacağını tapşırdı. 2010-cu ilin dekabr ayında, Yeni il bayramı ərəfəsində verdiyi geniş müsahibəsində jurnalistin sonuncu, hansı arzularının olduğu barədə sualına cavab verərkən Şuşada muğam müsabiqəsinin keçirilməsi, ölkəmizin inkişaf etməsi ilə bağlı arzularla yanaşı saf və təmiz bir istəyin – "bizim Əlişkanın" sağalması arzusunu dilə gətirməsi Mehriban xanımın uşaq sağlamlığına çox həssas münasibətinin daha bir göstəricisi oldu.

Kömək etmək cəhdlərinin boşa çıxdığı anlarda belə, o, öz nəcibliyi və səxavəti ilə qaranlıq çökmüş ümidlərə işıq saçmağı bacarır. Dəfələrlə müalicə üçün Fond tərəfindən Türkiyəyə göndərilmiş Əməkdar Artist Xanım Qafarovanın sağalması üçün əlindən gələni etdi, hətta son günlərdə onun İsrailə göndərilməsi barədə tapşırıq da vermişdi. Təəssüf ki, Xanım Qafarovanı itirdik. Dəfələrlə balaca qızının taleyindən narahatlığını dilə gətirən Əməkdar Artistin övladı Mehriban xanımın tapşırığı ilə Fondun himayəsinə götürüldü.

Bu kimi misalların sayı-hesabı yoxdur. O, irəli sürdüyü və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanan təşəbbüsləri ilə təkcə mövcud olan problemlərin həllinə çalışmır, eyni zamanda bizlərə insansevərlik dərsi keçir.



*Heydər Əliyev Fondu tərəfindən bu qədər uşağa qayğı göstərilməsi və bu qədər uşağın əməliyyat edilərək xilas olunması məni təəccübləndirir. Bu, həqiqətən də məni təsirləndirir. Heydər Əliyev Fondu və Fondun prezidentinin insanlara və onların ehtiyaclarına bu qədər yaxın olması çox gözəldir.*

Alessandro Ciamberti
Ürək cərrahı

Dünya Səhiyyə Təşkilatı (WHO) İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə Mehriban Əliyevanın ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə bu beynəlxalq təşkilatın mükafatına layiq görülməsi onun bu sahədəki fəaliyyətinə verilmiş düzgün qiymətdir.

Mehriban Əliyevanın irəli sürdüyü hər bir ideya ictimai şüurda və həyatda köklü dəyişikliklərə gətirib çıxarır. Fiziki qüsurlu insanların cəmiyyətə inteqrasiyası, onların mövcud komplekslərindən azad olmalarına yardım, istedadlarının üzə çıxarılması və inkişaf etdirilməsi, əməklərinin qiymətləndirilməsi Mehriban xanımın bu mövzuya göstərdiyi diqqətdən sonra cəmiyyətdə ön plana çəkildi. Onun təklifi ilə əlillərin ixtiraçılıq fəaliyyətinin təşviq edilməsi və 15 ixtiraçıya Ümumdünya Əqli Mülkiyyət Təşkilatının mükafatlarının verilməsi, ölkənin müxtəlif bölgələrində Məhdud Fiziki İmkanlı İnsanlar üçün Regional İnformasiya Mərkəzlərinin inşa edilməsi bu insanlara xəstəliyin yaratdığı məhdudiyyətlərdən azad olmağa, onların özlərinə, ətrafdakılara, dünyaya, öz vəziyyətlərinə münasibətinin dəyişməsinə səbəb oldu.





*Qadının gücü, güc mənbəyi ilk baxışdan çox sadə görünən xeyirxahlıq, sevgi və mərhəmət kimi əbədi duyğulardadır.*

Mehriban Əliyeva

Mehriban xanım öz fəaliyyəti ilə Azərbaycanda qadın hərəkatını canlandıraraq onun tarixində yeni bir mərhələ açdı. Təbii ki, qədim və zəngin tariximizin hər bir səhifəsində Azərbaycan qadınının müdrikliyi və qəhrəmanlığının parlaq nümunələri olub. Xalqımızın maariflənməsində, iqtisadiyyatımızın qurulmasında, mədəniyyətimizin yüksəlişində və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında qadınlar daim yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirmişlər. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçib-seçilmək hüququ əldə etməsi, mədəniyyətin, incəsənətin, elmin müxtəlif sahələrində ilk addım atması Azərbaycan qadınının işgüzarlığının və intellektual potensialının aydın təzahürüdür.

Fərəhləndirici haldır ki, tariximizin hər bir mərhələsində olduğu kimi müasir dövrdə də qadınlar milli-əxlaqi dəyərlərimizin və mədəni irsimizin qorunub saxlanılmasına, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərin fəal iştirakçısı olaraq vətəndaş cəmiyyəti quruculuğuna, mədəniyyətlərarası dialoqun formalaşmasına, Azərbaycanın yüksəlişinin təmin edilməsinə öz töhfələrini əsirgəmirlər.

Müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini gender bərabərliyi təşkil edir. Azərbaycanın gender məsələləri ilə bağlı dövlət siyasəti də qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlmişdir. Cəmiyyətimizdə qadınlara göstərilən yüksək ehtiram, ölkəmizdəki sabitlik və demokratik mühit onların müxtəlif istiqamətlərdə bilik və bacarıqlarını göstərməsi üçün bütün lazımi şəraiti təmin edir. Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, orada qadınlar iştirak etməsin. Azərbaycan qadını öz sözünü deyir və öz mövqeyini sərbəst nümayiş etdirir.





Mehriban xanımın milli maraqlara söykənən çoxşaxəli fəaliyyəti müasir Azərbaycan qadınının cəmiyyətdəki mövqeyi və rolu barədə aydın təsəvvür yaradır. Onun şəxsiyyətində Azərbaycan qadını üçün səciyyəvi olan yüksək humanizm və qayğıkeşlik kimi keyfiyyətlər öz parlaq təcəssümünü tapıb. Onu gözəllik, xeyirxahlıq və mərhəmətin rəmzi hesab edirlər, bir çoxları özlərini Mehriban xanıma bənzədir. Bu gün hər bir Azərbaycan qadını öz fəaliyyətində onun yorulmaz fəaliyyətini özünə örnək hesab edir, ondan nümunə götürərək cəmiyyətdə öz yerini tapmağa çalışır.

Azərbaycan qadını haqlı olaraq Mehriban Əliyevanın timsalında bir etibarlı dayaq görür, problemlərinə, mənəvi, ruhi, maddi ehtiyaclarına məlhəm qoyan, yardım edən çox doğma, munis Azərbaycan qadınının varlığına güvənir[27].

Onun fikrincə, qadınları iki model ilə üz-üzə qoymaq düzgün deyil: "Belə hesab olunur ki, Şərq qadını daha çox ailəyə bağlıdır, Qərb qadını isə cəmiyyətdə yüksək mövqe axtarır. Reallıq isə iki mövqedən də çox-çox uzaqdır. Mən elə hesab edirəm ki, həm Şərq qadını, həm Qərb qadını tarix boyu elə nailiyyətlər əldə edib ki, onlardan biz hamımız faydalana bilərik. Bu yanlış stereotipdən bu məsələdə uzaq olsaq, bu, həm Şərqə, həm də Qərbə kömək edə bilər"[28].


Mehriban Aliyeva
BOSCH





Azərbaycanın birinci xanımı bu qənaətdədir ki, qadın hüquqlarının qorunması hər bir cəmiyyətin inkişafı və sağlam gələcəyi baxımından son dərəcə vacibdir. Güclü qadın, ilk növbədə, ana kimi övlad dünyaya gətirməklə yanaşı, onun mənəvi tərbiyəsində, cəmiyyət üçün layiqli insan və kamil şəxsiyyət kimi yetişməsində, dünyaya yetkin baxışının formalaşmasında mühüm rol oynayır. Bu baxımdan qadınlara geniş hüquqların verilməsi, onların cəmiyyətdə layiqli yerinin təmin edilməsi, ilk növbədə, sağlam nəslin formalaşması, xalqın genetik saflığının qorunub-saxlanması baxımından vacibdir. Qadınlara özünütəsdiq imkanı yaratmaq, onların qabiliyyət və bacarığından səmərəli şəkildə istifadə etmək sağlam gələcəyini düşünən hər bir dövlətin əsas vəzifəsidir[29].






“Gender bərabərliyi: de-yure və de-fakto gender bərabərliyinin təmin olunması” mövzusunda beynəlxalq konfransda bütün bu məsələlərə diqqət çəkən UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım respublikamızda qadınlara ailə dəyərlərinin daşıyıcısı kimi tarixən hörmətlə yanaşıldığını xüsusi vurğulamışdır: “Bizi narahat edən digər problem məişət zorakılığıdır. Hətta ən inkişaf etmiş cəmiyyətlərdə qadınlar müxtəlif növ zorakılığa məruz qalırlar. Azərbaycan da istisna deyildir. Digər ölkələrdə olduğu kimi, bizim ölkədə də məişət zorakılığını müəyyən etmək çox çətin olur. Bununla belə, qadınlar və uşaqlara qarşı hər hansı zorakılıq, hətta bir hadisə olsa belə, qəbuledilməzdir. Qeyd etmək istəyirəm ki, ənənələrimiz və mentalitetimizdən istifadə edərək, bu cür davranışa rəvac vermək mənəviyyatsızlıqdır. Azərbaycan xalqının adət-ənənələrində qadına çox böyük hörmət və qayğı ilə yanaşılır. Ailə dəyərləri cəmiyyətimizin ən mühüm və qiymətli dəyərləri olmuş və olaraq qalır. Azərbaycanlılar üçün ana müqəddəs simadır”[30].


Bakı, 24-25 may 2010-cu il

*Bizim ən böyük sərvətimiz bizim mədəni irsimizdir. Bizim ədəbiyyatımız, poeziyamız, musiqimiz, təkrarsız, nadir xalçaçılıq məktəbimiz, təsviri sənətimiz, memarlıq abidələrimizdir. Bu mədəni irs bizi millət kimi qoruyub saxlayır. Bu gün bu mədəniyyəti qorumaq, saxlamaq, təbliğ etmək hər birimizin mənəvi borcudur.*

Mehriban Əliyeva

Milli-mənəvi dəyərlər hər bir xalqın mədəniyyətinin inkişafında, onun milli şüurunun formalaşmasında mühüm rol oynayır. Tarixən xalqın milli-mənəvi irsini, mədəni dəyərlərini qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək fenomenal şəxsiyyətlərin adı ilə bağlı olmuşdur. Müasir Azərbaycan dövlətinin milli ədəbiyyatımız, musiqimiz, incəsənətimiz, tarixi abidələrimiz, doğma Azərbaycan dilimiz kimi möhkəm mənəvi əsaslar üzərində qurulduğunu söyləyən Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinə nəzər salsaq onun bu dəyərlərin qorunub saxlanılmasına göstərdiyi böyük diqqət və qayğının şahidi olarıq.

O, hesab edir ki, dövrlərin və nəsillərin varisliyi saxlanılmadan milli mədəniyyəti, incəsənəti, milli ruhu formalaşdırmaq mümkün deyil və bəlkə də məhz elə buna görə bu varisliyinin qorunmasına, mənəvi dəyərlərimizin bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafına, xalqımızın milli varlığını özündə yaşadan zəngin mədəni irsimizin dünyaya tanıdılmasına xüsusi əhəmiyyət verir. Mehriban xanım hələ 1995-ci ildə təsis etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu (ind. Azərbaycan Mədəniyyət Fondu) ilə əsas amalını – milli mədəni irsimizin inkişafına və dünyada tanıdılmasına xidmət etmək amalını müəyyən etmişdi.





Müsahibələrindən birində Azərbaycan Mədəniyyət Fondunun və "İrs" jurnalının yaradılma məqsədlərini Mehriban xanım özü çox maraqlı izah etmişdir: "Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaradarkən onun əsas məqsədi Azərbaycan mədəniyyətini təbliğ etmək, tanıtdırmaq idi. "İrs" jurnalını da mən elə onda təsis etdim. Jurnal, əslində, Fondun fəaliyyətini işıqlandırmaqla məşğul olurdu və müəyyən bir mövzuya həsr edilən hər bir nömrə həm populyar, həm də tədqiqat materialı idi. İftixarla deyə bilərəm ki, Azərbaycan mədəniyyəti barədə bizdən əvvəl hələ heç kim belə şirin yazmayıbdır. Məsələn, miniatürdən və ya memarlıq abidələrindən yazmağı qarşımıza məqsəd qoyduqda, əməkdaşlığa, əslində, həm akademiya alimlərini, həm jurnalistləri, həm də sənətşünasları cəlb etmişdik. Fond da, jurnal da kifayət qədər mürəkkəb vəzifələri yerinə yetirməli idi. O illər müstəqil Azərbaycanın təşəkkül illəri idi. Siyasi, iqtisadi dəyişikliklərlə yanaşı, köhnə ideologiyadan xilasolma prosesi də gedir, stereotiplər dağıdılırdı. Kifayət qədər təlatümlü həmin dövrdə mədəni irsimiz yenidən fikir süzgəcindən keçirilir, əzəli milli ənənələrə və köklərə qayıdılırdı"[31].



*Mehriban Əliyevanın vətənimiz üçün gördüyü işlərin mahiyyəti, bəlkə də, hələ tam dərk edilmir. Lakin tarixdə elə hadisələr olur ki, onların tarixi dəyəri təkcə gələcək nəsillərə ünvanlanmır, əksinə elə ilk gündən müəyyənləşir. Azərbaycanın tarixində ilk xoşməramlı səfir Mehriban Əliyevanın Azərbaycan Mədəniyyət Fondunun prezidenti kimi çoxşaxəli və çoxillik fəaliyyəti məhz bu tarixi dəyərə malikdir.*

Nərgiz Paşayeva
M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, akademik



O, Azərbaycan dilinin inkişafı, cəmiyyətimizdə layiqli yer tutması üçün nə etmək lazım gəldiyini gözəl bilir. “Əsrlər boyu millətlərin, xalqların formalaşmasında dil misilsiz rol oynayır. Azərbaycan xalqı da çox qədim və zəngin tarixə və mədəniyyətə malik olan bir xalqdır. Eyni zamanda, Azərbaycan müstəqil dövlət kimi çox gəncdir. Biz Azərbaycan dilimizi qoruyub saxlamaqla, öz ənənələrimizi, milli-mənəvi dəyərlərimizi, öz köklərimizi qoruyub saxlamışıq. Əlbəttə, hər bir dil inkişaf edir, yeni kəlmələrlə, yeni terminlərlə zənginləşir. Amma biz gərək unutmayaq ki, dil özü-özlüyündə çox dəyərli bir mədəni və tarixi abidədir”[32] söyləyən Mehriban xanım Azərbaycan dilinin qorunub saxlanılması, onun beynəlxalq səviyyəyə qaldırılması, beynəlxalq ictimaiyyətin Azərbaycan reallıqları ilə məhz Azərbaycan dilində tanış olması üçün əlindən gələni edir. 2008-ci ildə Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda (INALCO) Azərbaycan dili fakültəsinin, 2009-cu ildə Rumıniyanın Kluj şəhərindəki Babeş-Bolyai Universitetində “Türkologiya və Mərkəzi Asiya Araşdırmalar İnstitutu”nun və Moskva Dövlət Linqvistika Universitetinin nəzdindəki Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin, 2013-cü ildə isə Buxarest şəhərindəki Rumıniya-Azərbaycan Araşdırmalar Mərkəzinin açılması xarici ölkələrdə Azərbaycan dilinin, ümumiyyətlə Azərbaycan tarixinin öyrənilməsi üçün gözəl zəmin yaratdı.





Mehriban xanım əsrlər boyu xalqımızın milli varlığının və özünəməxsusluğunun ifadəsi kimi formalaşmış zəngin mənəvi irsini, milli düşüncə və dəyərlər sistemini, intellektual mülkiyyətini yad təsirlərdən qorumaq, zəngin mədəniyyətini bəşər miqyasında təbliğ etmək kimi çətin və şərəfli vəzifənin öhdəsindən layiqincə gəlir. Onun fəaliyyəti nəticəsində Azərbaycan mədəniyyəti, incəsənətimizin bir çox sahələri sanki yenidən kəşf edilir, ölkə sərhədlərini aşaraq dünya miqyasında tanınmağa və sevilməyə başlanılır. Milli-mədəni incilərimiz bir-birinin ardınca dünya mədəni irsi və bəşəriyyətin qeyri-maddi mədəni irsi siyahısına salınır. Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, İçərişəhər, Qız qalası və Şirvanşahlar sarayı kompleksinin UNESCO-nun dünya mədəni irs siyahısına, Azərbaycan muğamı, aşıq sənəti, xalçaçılıq sənəti, tar ifaçılığı və hazırlanması sənəti, eləcə də Novruz bayramının UNESCO-nun bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına salınması məqsədyönlü fəaliyyətin nəticəsidir. Təsadüfi deyil ki, 2004-cü ildə Mehriban Əliyeva şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür.

Maraqlıdır ki, Mehriban Əliyevaya UNESCO-nun xoşməramlı səfiri adının verilməsi bir çox tədqiqatçılar tərəfindən onun timsalında milli mədəniyyətimizə, folklorumuza, tariximizə, dilimizə, incəsənətimizə göstərdiyi diqqət və Mehriban xanımın şifahi irsin və musiqi yaradıcılığı irsinin qorunub saxlanılması, inkişafı sahəsində ortaya qoyduğu zəhmətin xoş bəhrəsi kimi dəyərləndirildiyi halda, Azərbaycan Prezidenti İlham Əliyev bunu onun insani keyfiyyətləri ilə əlaqələndirir: "Çox şadam ki, onun fəaliyyəti bu cür yüksək qiymətləndirilir və tanınır. Elə bilirəm ki, o, xoşməramlı səfir adını daşımağa layiqdir. Çünki o, həmişə insanlara xoş münasibəti, xoş niyyəti ilə seçilibdir. Bu, onun xasiyyətinin fərqləndirici cəhətidir"[33].

*Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin qorunmasına, inkişafına və təbliğinə çalışmaqla təkcə öz xalqına xidmət etmir, eyni zamanda UNESCO-nun qarşıya qoyduğu vəzifələri icra edir. Bu vəzifələr isə ümumiyyətlə başəriyyətə xidmət etməkdən ibarətdir. Bu baxımdan xanım Əliyevanın fəaliyyəti təqdir olunmalıdır.*

Koişiro Matsuura
UNESCO-nun Baş direktoru
(1999-2009)








"Muğam sənəti bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik – bütün bu hislər muğam fəlsəfəsinin əsasındadır"[34] fikri ilə muğamın dəyərini vurğulayan Mehriban Əliyeva onun qorunmasına, inkişafına və təbliğinə yönəlmiş çoxsaylı layihələrin təşəbbüskarı kimi çıxış edib. Məhz bu layihələrin sayəsində Azərbaycan muğamına yeni bir nəfəs verildi, muğam sənəti yeni inkişaf mərhələsinə qədəm qoydu.

2005-ci ilin mart ayında UNESCO-nun xoşməramlı səfirlərinin illik iclasında xoşməramlı səfir qismində ilk dəfə iştirak edən Mehriban Əliyeva mədəni irsin qorunmasına dair layihələr barədə məlumat verərkən, öz çıxışını Azərbaycan muğamlarına həsr etmiş və elə oradaca Heydər Əliyev Fondunun ilk layihələrindən biri olan "Qarabağ xanəndələri" musiqi albomunu iştirakçılara təqdim etmişdir. Mehriban Əliyevanın təşəbbüsü ilə ərsəyə gəlmiş və Azərbaycan muğam sənətkarlarının təmizlənmiş və yenidən yazılmış ifalarından ibarət musiqi albomu elə o vaxt ayrı-ayrı ölkələri təmsil edən tədbir iştirakçılarının diqqətini cəlb etmişdi.

Alboma "Qarabağ xanəndələri" adı qoyulmaqla bütün dünyaya bir daha göstərildi ki, Qarabağ əzəli və əbədi Azərbaycan torpağıdır, muğam isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsidir. Aydın məsələdir ki, bu, adi bir musiqi layihəsi olmadı, həm də milli-siyasi əhəmiyyət daşımaqla, illərdən bəri aparılan erməni təbliğatına vurulan böyük zərbəyə çevrildi[35].

"İnsanlara əbədi həqiqətlər haqqında düşünmək və bir də mənəvi rahatlıq tapmaq imkanı yaratmaq" qüdrətində olan muğam kimi misilsiz, dərin fəlsəfi mahiyyətli musiqi haqqında danışan Azərbaycanın xoşməramlı səfiri həm də mənəvi işğala məruz qalmış Vətənimizin haqq səsini çatdırdı. O, Azərbaycanın sadəcə bir ərazi parçası deyil, mədəniyyətimizin, mənəviyyatımızın ayrılmaz parçası olan Qarabağ haqqında onun öz avazı, nəfəsi, tarixdən gələn ən obyektiv şahidləri və mühafizəçilərinin – musiqi səfirlərinin səsi ilə danışırdı. Mehriban xanım UNESCO-nun açdığı imkanlar dairəsində yenə də Azərbaycan reallıqlarını, mənəvi və mədəni sərvətlərin tarixini, bugünkü potensialını yüksək, inandırıcı, cəlbedici, müasir səviyyədə təqdim etdi[36].



Zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən 2005-ci ildən keçirilən muğam müsabiqələri yeni ifaçılar nəslinin yetişməsinə səbəb olmuşdur. Elə həmin il Mehriban Əliyevanın təşəbbüsü ilə görkəmli muğam ustalarının iştirakı ilə dəyirmi masa keçirildi və Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alındı. UNESCO-nun xoşməramlı səfirlərinin illik yığıncağında çıxışı zamanı Mehriban xanım mərkəzin yaradılma məqsədini çox aydın şəkildə izah etdi: "Bu musiqi mərkəzini yaradarkən nəinki musiqiçilərin, həm də musiqisevərlərin buraya gələrək musiqini dinləməsini, ənənəvi musiqimiz barədə müzakirələr aparmağı və yaşlı nəsildən olan sənətkarların öz təcrübələrini, biliklərini və ustalıqlarını yeni nəsillə bölüşdürməsini nəzərdə tutmuşuq. Ümid edirik ki, bu mərkəz həm də müxtəlif ölkələrdən olan insanların görüş yerinə çevriləcək, dünya mədəni irsinin qorunub saxlanması yolunda daha bir addım olacaqdır"[37].

Azərbaycanda muğam sənətinin təbliği və tədqiqi işini təkmilləşdirmək, bu sənətə qayğını daha da artırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2005-ci il aprelin 6-da Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında sərəncam imzalandı. Mehriban Əliyevanın bilavasitə iştirakı ilə çoxsaylı görüşlərin və məsləhətləşmələrin nəticəsi olaraq Beynəlxalq Muğam Mərkəzinin layihəsi tərtib edildi. Bu, Azərbaycan musiqisinin zəngin fəlsəfi təməl üzərində təşəkkül tapmasında əvəzsiz rol oynayan muğama möhtəşəm abidə ucaldılması istiqamətində ciddi addım oldu. Təməlqoyma mərasimində UNESCO-nun Baş direktoru Koişiro Matsuuranın da iştirak etdiyi möhtəşəm bina istifadəyə verildikdən sonra burada 2009-cu ildə dünyada ilk dəfə olaraq Beynəlxalq Muğam Festivalının keçirilməsi də məhz Mehriban Əliyevanın təşəbbüsü ilə baş tutdu.

Mehriban Əliyevanın hər bir məsələyə diqqətlə yanaşması və dəqiq təhlili bizim üçün ilk baxışdan az əhəmiyyətli görünən məqamların bəzən elə bir təfərrüatını ortaya çıxarır ki, onun mahiyyətini yalnız iş başa çatdıqdan sonra dərk edirik. Müxtəlif millətlərdən olan muğamsevərləri, muğam ustadlarını və muğamşünas alimləri bir araya toplayan "Muğam aləmi" Beynəlxalq Muğam Festivalının keçirildiyi Beynəlxalq Muğam Mərkəzinin binası da bunun əyani sübutudur. 2008-ci ildə istifadəyə verilmiş binanın formasında bir rəmzilik müşahidə olunur. O, qədim Azərbaycan musiqi alətlərinin hissələrini xatırladır. İllər sonra, 2012-ci ildə Azərbaycan tar ifaçılığı və hazırlanması sənətinin UNESCO-nun bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsi Mehriban Əliyevanın hələ 2005-ci ildə binanın musiqi alətinin hissələri formasında inşa olunması qərarının mahiyyətini üzə çıxardı.

















Yeri gəlmişkən, bir faktı xüsusi vurğulamaq istərdim. Mehriban xanım onun təşəbbüsü ilə həyata keçirilən layihələr çərçivəsində ucaldılan binaların görünüşünə xüsusi önəm verir. “Öz sevimli şəhərinin ona layiq olan gözəlliyə qovuşmasını görmək xoşbəxtlikdir” söyləyən Mehriban xanımın rəhbərliyi ilə inşa olunmuş hər bir binada onun incə zövqünü duymaq mümkündür. O, Bakının tarixi simasının saxlanılması şərti ilə şəhərin memarlığına müasir cizgilərin əlavə edilməsinə həssaslıqla yanaşaraq Şərq və Qərb memarlığının incə vəhdətini yaratmağa nail olur.










HEYDAR ALIYEV FOUNDATION

*Biz tam əsasla deyə bilərik ki, əgər ölkənizin böyük mədəni irsi - şifahi ədəbiyyatın müxtəlif nümunələrindən müasir musiqi sənətinə qədər - bütün dünyada bu cür nüfuz qazanmışdırsa, bu, xeyli dərəcədə şəxsən Sizin dəstəyiniz və prezidenti olduğunuz Heydər Əliyev Fondunun fəaliyyəti sayəsində mümkün olmuşdur.*

İrina Bokova
UNESCO-nun Baş direktoru

Musiqidən söz açarkən onun tərcüməyə ehtiyacı olmadığını, sülh və ahəngdarlıq gətirə bildiyini, dillərin yardımçı olmadığı məqamda fərqləri aradan qaldırdığını söyləyən Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda keçirilən beynəlxalq musiqi festivalları dünyanın tanınmış musiqiçilərinin Azərbaycanla yaxından tanışlığı və ümumiyyətlə müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradır. Ənənəvi olaraq Qəbələdə təşkil olunan Beynəlxalq Musiqi Festivalı elə keçirildiyi 2009-cu ildən bütün musiqisevərlərin diqqətini Azərbaycana yönəltmişdir. 2010-cu ildə təşkil olunan Qəbələ İkinci Beynəlxalq Musiqi Festivalında ölkə Prezidenti İlham Əliyevin və UNESCO-nun Baş direktoru İrina Bokovanın iştirakını festivalın əldə etdiyi böyük nüfuzun göstəricisi kimi dəyərləndirmək olar. Elə həmin tədbirdə İrina Bokova Mehriban xanımın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirərək, bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşdırılması işinə sədaqətinə, mədəniyyətlərarası dialoqun inkişafı naminə daim göstərdiyi səylərin, mədəni müxtəlifliyin möhkəmləndirilməsinə sanballı töhfənin, UNESCO-nun ideallarına və məqsədlərinə sadiqliyinin təsdiqlənməsi əlaməti olaraq ona UNESCO-nun “Qızıl Motsart” medalını təqdim etmişdir.

Azərbaycanın istedadlı ifaçılarını dünyanın ən nüfuzlu təhsil müəssisələrinə göndərmək ideyası da ona məxsusdur. Onun sayəsində indi musiqinin incəliklərinə dərindən yiyələnmiş İsfar Sarabski, Türkər Qasımzadə, Elvin Qəniyev, Fuad İbrahimov kimi çoxsaylı gənc istedadlarımız Azərbaycanı xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə layiqincə təmsil edirlər.


BƏLƏ II BEYNƏLXAL


LQ MUSİQİ FESTİVALI

Musiqiyə həssaslıqla yanaşan Mehriban Əliyeva ölkəmizin mötəbər musiqi yarışmalarında iştirakı üçün əlindən gələni əsirgəmir. Azərbaycanın "Eurovision" Mahnı Müsabiqəsində də iştirakının təşəbbüskarı məhz o oldu. Onun dəstəyi nəticəsində ölkəmiz 2008-ci ildən etibarən hər il Eurovision Mahnı Müsabiqəsi layihəsində müvəffəqiyyətlə təmsil edilir. 2012-ci ildə isə biz hamımız Mehriban Əliyevanın "Eurovision-2012" Mahnı Müsabiqəsinin uğurla keçirilməsi naminə səylərinin şahidi olduq.

Bu müsabiqə onun dünyagörüşünü, işgüzarlığını, tükənməz səbrini, müsahibini təmkinlə dinləmək bacarığını, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətini bir daha üzə çıxardı. Çətin vəziyyətlərdə qətiyyətini, uzaqgörənliyini və iradəsini saxlamaq məharəti ilə, analitik düşüncə tərzi ilə, yüksək intellekti və dünya mədəniyyətinə bələd olması ilə ətrafındakıları heyrətləndirdi. Müsabiqənin Təşkilat Komitəsinin sədri olması, onun layihənin icrasına birbaşa rəhbərlik etməsi tədbirlərin keçirilməsinə və qarşıda duran bütün məsələlərin operativ həllinə imkan yaratdı.

Hamımız yaxşı anlayırdıq ki, qarşımızda çox ciddi layihə durur və ona hazırlıq – nəhəng işdir. Hazırlıq işlərinin həyata keçirilməsinə cəmi bir il vaxtımız var idi. Bu müddət ərzində "Eurovillage" və "Euroclub"un yaradılması, qonaqların yerləşdirilməsi, şəhər infrastrukturunun yaxşılaşdırılması, nəqliyyat sisteminin təkmilləşdirilməsi, təhlükəsizliyin təmin edilməsi, tibbi xidmətin optimallaşdırılması, informasiya-kommunikasiya texnologiyaları imkanlarından geniş istifadə və digər mühüm məsələlərlə yanaşı, Azərbaycana ilk dəfə gələcək çoxsaylı qonaqların ölkəmizi daha yaxşı tanıması, onun tarixi və mədəniyyəti ilə tanış olması, xalqımızın mehribanlığına və qonaqpərvərliyinə əyani şəkildə əmin olması üçün şərait yaratmalıydıq. Təşkilat Komitəsinin bütün iclaslarında Mehriban xanım ən xırda məqamlarla tanış olaraq ortaya çıxan problemlərin düzgün istiqamətdə həllinə yol tapırdı.










DÖVLƏT BAYRAĞI
MEYDANI



O, bütün dünya ictimaiyyətinin diqqətinin yönəldiyi mahnı müsabiqəsinin açılış və bağlanış mərasimləri üçün maraqlı və yaddaqalan proqramların hazırlanmasına xüsusi diqqət yetirdi. Azərbaycanın qədim zamanlardan zəngin musiqi mədəniyyətinə malik olmasını təcəssüm etdirən rəngarəng şou – milli musiqi alətimiz olan balabanın səsi, muğamın xoş avazı, qədim Azərbaycan musiqi mədəniyyətinin rəmzi sayılan qavaldaşın sədası, "Yallı" rəqsinin ritmləri tədbiri həm zaldan, həm də televiziya ekranlarından izləyən milyonlarla tamaşaçıya bir daha Azərbaycan mədəniyyətinin möhtəşəmliyini nümayiş etdirdi.

"Eurovision" Mahnı Müsabiqəsi Mehriban Əliyevanın humanistliyini bizlərə bir daha sübut etdi. 57 yaşı olan mahnı müsabiqəsinin tarixində ilk dəfə olaraq Mehriban Əliyevanın təşəbbüsü ilə iştirakçı dövlətlərdə 9-18 yaş arası fiziki qüsuru olan məktəblilər arasında "Mən Azərbaycanı kəşf edirəm" mövzusunda inşa müsabiqəsi keçirildi və qaliblərin Azərbaycana səfəri təşkil olundu.

Mehriban xanımın rəhbərliyi ilə ölkəmiz müsabiqəyə layiqincə ev sahibliyi etdi və dünyanın 80-dən çox ölkəsindən gələn media nümayəndələri və qonaqlar 42 ölkə təmsilçisinin iştirak etdiyi bu möhtəşəm müsabiqədə Azərbaycan xalqının bəşəri dəyərlərə, o cümlədən müxtəlif mədəniyyətlərə hörmət və ehtiramının şahidi oldular. Uğurla həyata keçirilmiş mahnı müsabiqəsinin bir çox ölkələrin nümayəndələri tərəfindən beynəlxalq tədbirlərin keçirilməsi üçün model olaraq qəbul edilməsi Azərbaycanın bu işin öhdəsindən məharətlə gəlməsindən xəbər verir.







Ümumiyyətlə, Mehriban xanım hər bir tədbiri düşünülmüş şəkildə həyata keçirir, onların tətbiqinə əvvəlcədən tərtib olunmuş xüsusi proqram əsasında başlayır. Keçirilməsi nəzərdə tutulan tədbirlərin bütün görünən və görünməyən tərəflərini yaxşı-yaxşı öyrənir, ortaya çıxacaq problemləri dərindən təhlil edir. Musiqi proqramının tərtib edilməsinə, ifaların ardıcıllığının düzgün qurulmasına, nümayiş etdiriləcək eksponatların seçiminə özü şəxsən nəzarət edir, bir çox hallarda əvvəlcədən məşqləri seyr edərək irad və təkliflərini bildirir.

Xarici ölkələrdə təşkil olunan sərgilərdə nümayiş etdirilən eksponatların seçimi təkcə bədii tərtibatın gözəlliyindən xəbər vermir. Burdakı hər bir detal, hər bir eksponat, istər arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət nümunəsi olsun, istər milli musiqi alətlərimiz, istərsə də qədim xalçaçılıq nümunələrinin rəngarəng çeşidləri olsun – hamısı incə məqsədə – Azərbaycan incəsənətinin, Azərbaycan mədəniyyətinin dünya ictimaiyyətinə tanıdılmasına xidmət edir. Dünya ictimaiyyətinin milli xalçalarımızla hələ orta əsrlərdə Şərq miniatürləri və Avropa rəssamlarının əsərləri vasitəsi ilə tanış olmasına baxmayaraq, Azərbaycan xalça ustalarının yaratdıqları kompozisiyalar əsrlər boyu dünyada Qafqaz xalça kompozisiyası kimi tanınıb. 1967-ci ildə yaradılmış, 1972-ci ildə isə istifadəyə verilmiş Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin dünyada ilk xalça muzeylərindən biri olması ölkəmizdə xalçaçılığın inkişafına, onun ayrıca sənət növü kimi tanınmasına verilən qiymətin aydın göstəricisidir. Ona görə də xalçaçılıq ənənələrinin qorunub saxlanılmasına xüsusi diqqət yetirən, yorulmaz səyləri nəticəsində bu sənətin UNESCO-nun bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına salınmasına nail olmuş Mehriban xanımın hər bir tədbirdə xalçaçılıq nümunələrinin nümayişinə xüsusi diqqət yetirməsi təsadüfi deyildir.









*Məncə Heydər Əliyev Fondu çox işlər görür. Əvvəla o, Azərbaycanın bir ölkə kimi formalaşması tarixini – qədim tarixini, müasir tarixini və indiki dövrünü tanıdır. İkincisi isə, o, Azərbaycanın müasir mədəniyyətini – müasir rəssamlarını, bəstəkarlarını, musiqiçilərini tanıdır.*

Mixail Şvıdkoy
Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi



Eyni misalları milli musiqi alətlərimizə də şamil etmək olar. Konsert zamanı tarda, balabanda gözəl ifanın təqdimatı tamaşaçıların zövqünü oxşamaqla yanaşı, həm də onlara musiqi alətlərimizi nümayiş etdirir. Dünyanın ən qədim musiqi ocaqlarından biri olan Santa Çeçiliya Musiqi Akademiyasının muzeyinə Mehriban xanımın təşəbbüsü ilə Azərbaycan milli musiqi alətlərinin hədiyyə edilməsi akademiyanın prezidenti Bruno Kalyinin söylədiyi kimi, "bizim ölkəyə məxsus mədəniyyətlə İtaliyanın mədəniyyətini birləşdirir".







Mehriban xanım incəsənəti çox həssaslıqla duyur. O, incəsənəti, o cümlədən təsviri sənəti təkcə sevməklə və təbliğ etməklə kifayətlənmir. Həm milli, həm də dünya təsviri sənət ənənələrini, çağdaş yaradıcılıq prosesinin poetika göstəricilərini, mövcud estetik prinsiplərini dərindən-dərinə mənimsəyib[38].

O, dünya incəsənəti nümunələrinin Bakıda nümayiş etdirilməsinə xüsusi önəm verir. Fərəhləndirici haldır ki, Mehriban xanımın təşəbbüsü ilə "Fransanın inciləri" sərgisi öz dünya turnesinə məhz bizim paytaxtımızdan başlamışdı. Son illər ərzində şəhər sakinləri dünyanın tanınmış rəssam və heykəltəraşlarının əsərlərindən ibarət müasir incəsənət sərgilərinin paytaxtımıza gətirilməsinin şahidi olur. Bu, təsadüfi deyil. Bu gün bütün dünyada olduğu kimi, Azərbaycanda da müasir incəsənətə səmimi maraq artmaqdadır. Hazırda insanların daha çox mənəvi dəyərlər, yaradıcılıq, incəsənət, qarşılıqlı münasibətlər haqqında düşünməyə başlaması sevindirici haldır. Hislərin tamaşaçıya tamamilə yeni, şablondan kənar tərzdə təqdim edilməsi, əsərin yaradılmasına qeyri-adi yanaşma, ideya cəsarəti get-gedə insanları bu sahəyə cəlb edir.





Mən əminliklə söyləyə bilərəm ki, Azərbaycana “müasir incəsənət” anlayışını Mehriban Əliyeva gətirib. Bir çoxlarının anlaya və ya qəbul edə bilmədiyi müasir incəsənət indi ölkəmizin mədəni həyatının nəzərəçarpan hadisəsinə çevrilib və müxtəlif qalereya və sərgi salonlarının fiziki və konseptual baxımdan hüdudsuz məkanını zəbt edib. Dünyanın müxtəlif şəhərlərində keçirilmiş “Bakıya uçuş” müasir incəsənət sərgiləri Mehriban xanımın daim dəstəklədiyi Azərbaycanın müasir incəsənət ustalarının əsərlərinin beynəlxalq ictimaiyyətə təqdim edilməsi üçün unikal imkan yaratdı.




MUSEUM
OF MODERN
ART


SƏNƏT



Mehriban xanım məharətlə müxtəlif sahələr arasında təmas nöqtəsini tapır. Misal üçün, incəsənət vasitəsi ilə o, insanların, xüsusən də gənclərin diqqətini həmişə aktual mövzulara, məsələn ekoloji problemlərə yönləndirməyi bacarır. "Tullantıdan sənətə" Beynəlxalq Sərgisi, nəsli kəsilməkdə olan "Qafqaz beşliyi"nə diqqəti cəlb etmək məqsədilə Qız Qalası Beynəlxalq İncəsənət Festivalı çərçivəsində ceyran maketlərinin nümayişi bunun bariz nümunəsidir. Yeri gəlmişkən, təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji tarazlığın qorunması, nadir və nəsli kəsilməkdə olan qiymətli heyvan və bitki növlərinin mühafizəsi və bərpa olunması sahəsində tədbirlərin görülməsi, beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrlə ətraf mühitin mühafizəsi sahəsində əlaqələrin genişləndirilməsi, əhali arasında ekoloji təbliğatın və maarifləndirmənin gücləndirilməsi Mehriban xanımın xüsusi diqqət yetirdiyi məsələlərdəndir. Yaşıllığın qorunmasına, ağacların kəsilməsinə çox həssas yanaşır. Məhz Mehriban xanımın 2007-ci ildə irəli sürdüyü təşəbbüs nəticəsində "Hərəmiz bir ağac əkək!" layihəsi çərçivəsində ölkə ərazisində milyonlarla ağac əkildi.

Onun təbiətə həssas münasibəti qızı Leyla tərəfindən dərindən mənimsənilmişdir. Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq ictimai birliyinin – IDEA-nın təsisçisi olan Leyla Əliyeva gənclərin bu sahədə biliklərinin artırılmasına xüsusi önəm verir və Heydər Əliyev Fondu tərəfindən mütəmadi olaraq təşkil olunan maarifləndirmə tədbirlərində bilavasitə iştirak edir.







Mehriban xanım dünya mədəniyyəti və tarixi ilə çox maraqlanır. Ayrı-ayrı ölkələrə səfərləri çərçivəsində tarixi yerlərlə, muzeylərlə tanışlıq zamanı həmin xalqın tarixinə və mədəniyyətinə yaxından bələd olması insanlarda təəccüb doğurur. Vatikan Dövlətinə sonuncu səfəri zamanı müqəddəs Roma katakombaları ilə tanışlığa protokolla 15 dəqiqə vaxt ayrılmışdı. Roma bədii irsinin ən gözəl nümunələri olan katakombalarla tanışlıq üçün 15 dəqiqənin yetərli olmadığını söyləyən Mehriban xanım xristian abidələri sırasında tarix və memarlıq baxımından xüsusi yer tutan bu abidələrlə tanışlığa iki saat vaxt ayırdı.









Avropanın bir sıra iri şəhərlərində çoxsaylı tədbirlərin, Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi, Azərbaycanda beynəlxalq musiqi və incəsənət festivallarının təşkili ilə o, dünyaya ölkəmizə yeni gözlə baxmağı öyrədir. Mehriban xanımın təşəbbüsü ilə reallaşan və artıq ölkə hüdudlarını aşan Qız Qalası Beynəlxalq İncəsənət Festivalının keçirilməsi təkcə qədim Bakının rəmzi hesab olunan Qız Qalasının dünyada tanıdılmasına deyil, həm də festival çərçivəsində ölkəmizə gələn çoxsaylı insanların müasir Azərbaycanın reallıqları ilə yaxından tanış olmasına xidmət edir.







*O, əbəs yerə UNESCO-nun xoşməramlı səfiri deyil. Bu, sadəcə gözəl bir ad, gözəl bir vəzifə deyil. Deməliyəm ki, onun sayəsində dünya arenasında Azərbaycan tamamilə başqa rəğbətə malikdir.*

Vitali İqnatenko
UNESCO-nun xoşməramlı səfiri

Mehriban Əliyevanın nəcib və humanist təbiəti, yüksək şəxsi mədəniyyəti, milli dəyərləri həm mütəfəkkir, həm də insan kimi sevmək bacarığı Azərbaycanın yeni Qərb siyasətinin leytmotivi və məzmunu üçün bir əsas, bir impuls bazası oldu. Avropada Azərbaycanın həqiqətlərini axtarmaq yox, Avropaya öz dəyərlərimizlə getmək. Öz dəyərlərimizi Avropaya aparıb tədricən onları tanıtmaq və bu yolla ölkənin xaricdə yeni obrazını yaratmaq[39].









*Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin tanıdılmasına xidmət edir və bununla da bu mədəniyyəti dünyada təbliğ edir. Azərbaycanın Fransanın müxtəlif regionlarında keçirilən tədbirləri, sərgiləri bu ölkə haqqında məlumatların çatdırılması niyyətini göstərir. Fransızlar bu tədbirlərdə Azərbaycan haqqında məlumatlar alır və bu ölkəni daha dərindən öyrənməyə və haqqında düşünməyə başlayır.*

Kristian Ponsöle
Fransa Senatının sədri (1998-2008), senator






Dünyanın ayrı-ayrı ölkələrində silsilə tədbirlərin təşkili incə düşünülmüş mədəni siyasətin tərkib hissəsidir. Son iki il ərzində təkcə Fransanın 20-dən çox şəhərində, o cümlədən bütün dünyadan turistlərin böyük axını izlənilən Kann şəhərində Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Azərbaycan ədəbiyyatının çoxsaylı nümunələrini xarici dillərdə nəşr etməklə, xaricdə xalq sənətkarlığı nümunələrindən, Azərbaycanın qədim xalçaçılıq sənəti nümunələrindən, milli musiqi alətlərimizdən ibarət sərgiləri, dahi Azərbaycan şairləri Nizami Gəncəvinin 870 və Məhsəti Gəncəvinin 900 illik yubileyləri ilə bağlı silsilə tədbirləri təşkil etməklə Mehriban xanım təkcə Azərbaycan mədəniyyətini, incəsənətini, ədəbiyyatını deyil, ümumilikdə Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmağa can atdı və buna nail oldu. İndi “Azərbaycan” dedikdə beynəlxalq ictimaiyyət zəngin mədəni irsə və tolerantlıq ənənələrinə malik, ümumbəşəri dəyərlərə hörmətlə yanaşan ölkədən bəhs edildiyini dəqiq bilir. İndi bütün dünya öz tarixi abidələrinin işğal olunmuş ərazilərdə dağıntılara məruz qalmış bir ölkənin Luvrun, Versal Sarayının parkındakı ümumbəşəri abidələrin, Berlin qəsrinin, Kapitolini Muzeyinin “Filosoflar zalı”nın bərpasına, Afrika İrs Məktəbinin inkişafına verdiyi töhfələri yüksək qiymətləndirir.



AMBASSADE DE LA RÉPUBLIQUE D'AZERBAÏDJAN EN FRANCE
Les Valeurs Culturelles de la P
L'Azerbaïdjan



erle du Caucase
FONDATION
HEYDAR ALIYEV
à CANNES
AMBASSADE DE LA RÉPUBLIQUE
D'AZERBAÏDJAN EN FRANCE

*Mən qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan çox yüksək tolerantlığa malik ölkə kimi bütün dünyaya nümunə ola bilər. Əsrlər boyu karvan yolları üstündə yerləşən bu diyar digər millətlərin və dinlərin nümayəndələri ilə təmas qurmağı bacarır. Bu gün də bizim ölkədə məscid, sinaqoq, katolik və pravoslav kilsələri mövcuddur. Torpağımızda yaşayan hər bir millətin təmsilçisi eyni hüquqlu Azərbaycan vətəndaşıdır. Başqa dinə dözümlülük və hörmət var. Elə bilirəm ki, bunlar hamısı bütün dünya üçün mesaj ola bilər.*

Mehriban Əliyeva

Mehriban xanım öz şəxsiyyətində və fəaliyyətində Şərq ənənələrinin, habelə Qərb dəyərlərinin ahəngdar vəhdətinə nail ola bilmişdir. Bu isə Azərbaycan mədəniyyətinin Şərq və Qərb sivilizasiyaları arasında körpü yaratmasının daha bir təsdiqidir.[40] Müsahibələrinin birində o, xoşməramlı səfir kimi öz vəzifəsini elm, mədəniyyət, təhsil vasitəsi ilə islam dünyasının malik olduğu imkanları üzə çıxarmaqda, Qərb və Şərqin, müxtəlif sivilizasiyaların bir-birinə necə maraqlı və lazımlı olmasını göstərməkdə gördüyünü söyləmiş və fəaliyyətinin əsas istiqamətini sivilizasiyalararası dialoqun genişlənməsinə yönəltmişdir.

Sivilizasiyalararası dialoq dövrümüzün ən çox müzakirə olunan mövzularından biridir. Qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dünyada müxtəlif dövlətlər və xalqlar arasında siyasi, iqtisadi, humanitar və mədəni əlaqələrin qurulması, sülhün və təhlükəsizliyin birgə səylərlə qorunması bu günün ən aktual problemlərindəndir. Mövzunun çox müzakirə olunmasına baxmayaraq, son zamanlar ziddiyyətli proseslər, ayrı-ayrı bölgələrdə milli-mədəni, mənəvi və siyasi münaqişələr müşahidə olunur. Təəssüf ki, etnik-siyasi qarşıdurmalar, terrorizm, separatçılıq, dini ekstremizm kimi bütövlükdə bəşər sivilizasiyasını təhdid edən hadisələr zəmanəmizin bugünkü acı gerçəkliyidir.







Bugünkü reallıqlar sivilizasiyalararası dialoqun genişlənməsinə xidmət edən ortaq mənafelərin etibarlı qorunması işinə töhfə vermək imkanlarını məhdudlaşdırır. Buna baxmayaraq, əminliklə deyə bilərik ki, Avropa ilə Asiya arasında təbii körpü rolunu oynayan Azərbaycan əsrlər boyu Şərqlə Qərbin mədəni dəyərlərini və sivilizasiyalarını tarixi İpək Yolu boyunca birləşdirərək, onların qarşılıqlı zənginləşməsinə, xalqlararası dialoqun dərinləşməsinə, beynəlxalq iqtisadi, siyasi və mədəni əlaqələrin genişlənməsinə, sülhün və təhlükəsizliyin təmin olunmasına əhəmiyyətli töhfələr vermiş və bu gün də bu istiqamətdə fəal iş aparmaqdadır.

Tariximizin istənilən dövrünə nəzər saldıqda biz Azərbaycanın müxtəlif dinlərin, mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu və bir-birini qarşılıqlı surətdə tamamladığı, həm Şərq, həm də Qərb dəyərlərini ehtiva edən bir məkan olduğunun şahidi oluruq. Müsəlman Şərqində ilk dünyəvi teatr, ilk opera, ilk balet, ilk elmlər akademiyasının, ilk demokratik respublikanın Azərbaycanda yaradılması da bu diyarın Qərb dəyərlərini və Şərq ruhunu birləşdirən bir məkan olduğunu göstərir.











Azərbaycanın bu sahədə əldə etdiyi uğurlar təkcə onun fərqli coğrafi məkanda yerləşməsi ilə deyil, həm də xalqımıza xas olan yüksək insanpərvərlik, cəmiyyətimizdə hökm sürən milli-dini dözümlülük mühiti, ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyi, etnik azlıqlar və dini icmalar arasında qarşılıqlı hörmət və etimad, bir sözlə, tolerantlıq ənənələrinin yaşadılması ilə bağlıdır. Bütün bu amillər cəmiyyət həyatında, ümumiyyətlə dünyada gedən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda mühüm əhəmiyyət kəsb edir. Son illər tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, yəhudi və xristian məbədlərinin bərpası və təmiri, o cümlədən regionda ən böyük sinaqoqun inşası, vaxtilə bolşeviklər tərəfindən dağıdılmış rus pravoslav kilsə kompleksinin əsaslı surətdə yenidən qurulması – bütün bunlar Azərbaycan gerçəkliyini əks etdirən sağlam dini-mənəvi durumun göstəriciləridir.






Avner" təhsil mərkəzi
מרכז חינוך "חב"ד אור אבנר"





Tolerantlıq, dini dözümlülük, multikulturalizm, sivilizasiyalararası dialoq – bütün bunlar Mehriban Əliyevanın daim diqqət mərkəzində saxladığı, öz fəaliyyətində xüsusi əhəmiyyət verdiyi məsələlərdir: "Bu gün bəşəriyyət çox mürəkkəb bir dilemma qarşısındadır. Bu, həm siyasi, həm də elmi müstəvidə olan problemdir. Müasir alimlərin bir qismi sivilizasiyaların toqquşmasından söhbət açır və bunu elmi cəhətdən əsaslandırmağa çalışırlar. Digər mövqedə olan insanlar isə hesab edirlər ki, bizim zəngin müxtəlifliyimiz bəşəriyyətin ən böyük sərvətidir. Onlar dialoqun tərəfdarıdırlar və biz bu insanlarla həmfikirik. Belə bir dialoqun reallaşması üçün hər bir ölkədə konkret işlər görülməlidir"[41].

Heydər Əliyev Fondu tərəfindən 2005-ci ildən uğurla həyata keçirilən "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsinin təşəbbüskarı məhz Mehriban Əliyeva oldu. Layihə çərçivəsində məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparıldı. Bakıda yəhudi uşaqları üçün təhsil kompleksinin istifadəyə verilməsi, rus icmasının kompakt yaşadığı ən böyük yaşayış məntəqələrindən biri olan İsmayıllı rayonun İvanovka kəndinə daimi diqqət və qayğı, kənd xəstəxanasının avadanlıqla təchizatı tolerantlığın yeni bir təzahürü oldu.


eron. Nardaran tarix-mədəniyyət qoruğu
Rəhimə xanım ziyarətgahı
Abşeron. Kiçik Mərdəkan qəsri.
XIII-XIV əsrlər

*Mehriban Əliyeva və onun komandası bu qarma-qarışıq dünyada sülhün möhkəmlənməsi üçün, tolerantlığa nail olmaq üçün çalışır.*

Əli Doğramacı
Bilkənt Universitetinin
İdarə Heyətinin sədri



Fondun təşkilatçılığı ilə 2006-cı ilin aprelində Bakıda "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda beynəlxalq konfransın, həmin ilin oktyabrında Parisdə UNESCO-nun 60 illiyinə həsr olunmuş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovşağında" adı altında tədbirin, 2007-ci ilin noyabrında Bakıda "Gənclər sivilizasiyaların alyansı naminə" beynəlxalq konfransın keçirilməsi də dövlət siyasətinin məntiqi davamı oldu. Mehriban xanımın məqsədyönlü fəaliyyəti nəticəsində bu mövzu daha da aktuallaşdı və özünü dünyada tolerantlığın ideoloji mərkəzi və praktik təcəssümü kimi təsdiq etmiş ölkəmiz mühüm tədbirlərin təşəbbüskarı kimi çıxış etdi.

Ümumiyyətlə, Azərbaycanda sivilizasiyalararası dialoqun intensivləşdirilməsi yolunda siyasətçilərin, alimlərin, din və mədəniyyət xadimlərinin qarşısında geniş perspektivlər mövcuddur, mədəniyyətlərin qarşıdurması təhlükəsinin dəf edilməsi üçün gözəl zəmin yaradılmışdır. Təsadüfi deyildir ki, bu gün dünyanın tanınmış elm, mədəniyyət və din xadimləri Bakıda toplaşır və sivilizasiyaların qarşılıqlı anlaşması istiqamətində səmərəli iş aparırlar. 2008-ci ildə Bakıda Avropa Şurasına Üzv Ölkələrin Mədəniyyət Nazirlərinin Toplantısına İslam Əməkdaşlıq Təşkilatının nümayəndələrinin, nazirlərin, 2009-cu ildə isə İƏT-ə üzv ölkələrin nazirlərinin Bakıda keçirilən toplantısına Avropa Şurası ölkələri nazirlərinin dəvət olunması sivilizasiyalararası dialoqun inkişafında dönüş nöqtəsi oldu.

Multikulturalizmin mərkəzi, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu məkan kimi tanınan ölkəmiz daha sonra Dünya Dini Liderlərinin Bakı Sammitinə (2010), Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna (2011, 2013), Bakı Beynəlxalq Humanitar Forumuna (2011-2013) və digər beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Burada təşkil olunan hər bir tədbir iştirakçı ölkələrin sivilizasiyalararası dialoqun təşviqinə cəlb olunmasına, həm dövlətlər, həm də beynəlxalq təşkilatlar arasında daha konstruktiv əməkdaşlığın yaranmasına və inkişafına xidmət edir.




T OF RELIGIOUS LEADERS
RİN ÜMUMDÜNYA SAMMİTİ
7 APRIL 2010
BAKU





*Heydər Əliyev Fondunun fəaliyyəti bir neçə baxımdan çox vacibdir. Birincisi, o, dünya mədəniyyətini Azərbaycanda tanıdır, milli mədəniyyəti isə dünyaya təqdim edir. İkincisi, qayğıya ehtiyacı olan insanlara sevgi göstərir, lazımi köməyi əsirgəmir. Üçüncüsü isə mədəniyyətlər-, sivilizasiyalararası dialoqun qurulmasına və bununla da müxtəlif dəyərlərin bir araya gəlməsinə töhfə verir. Vatikanla Heydər Əliyev Fondu arasındakı dialoq da dini irticaya, ziddiyyətlərə qarşı yönəlmişdir və sülhə, dostluğa xidmət edir.*

Kardinal Canfranko Ravazi
Vatikan Dövlətinin mədəniyyət üzrə pontifik şurasının sədri

Mehriban xanım ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şəraitin yaradıldığını, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının əsas insan hüquq və azadlıqlarına malik olmasını xarici ölkələrdə təşkil olunan tədbirlərdəki çıxışlarında xüsusi vurğulamaqla kifayətlənməyib, sivilizasiyalararası dialoqun genişləndirilməsinə xidmət edən layihələrin həyata keçirilməsi ideyalarını irəli sürdü: "Bakı unikal şəhərdir. Artıq uzun müddətdir ki, burada müsəlman məscidi və atəşpərəst məbədi, katolik kilsəsi və sinaqoq, pravoslav məbədi və kirxa yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə, yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dinin əsas dəyərlərinin ümumbəşəri dəyərlərlə üst-üstə düşdüyünü təsdiq edir"[42].





Bu gün artıq bütün beynəlxalq ictimaiyyət Mehriban Əliyevanın dünya dinlərinə tolerant münasibətinin, müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına verdiyi töhfələrin şahididir. Onun təşəbbüsü ilə Fransa regionlarında kilsələrin, Vatikanda müqəddəs Roma katakombalarının bərpası, Həştərxanda Müqəddəs Knyaz Vladimirin abidəsinin ucaldılması məhz ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir. Mehriban xanımın sivilizasiyaların, dünya dinlərinin əlaqələrini dərinləşdirmək istiqamətində Azərbaycanın beynəlxalq əməkdaşlıq platforması qismində çıxış etməsinə göstərdiyi böyük səylər öz nəticəsini verməkdədir. Ölkəmiz dünya ictimaiyyəti tərəfindən Şərq və Qərb sivilizasiyaları arasında səmərəli dialoqun təmin edilməsi sahəsində bir nümunə kimi qəbul edilir. Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə malik olması artıq bütün dünyanın qəbul etdiyi bir həqiqətdir.





*Birinci xanım Mehriban Əliyeva öz islahatçı xarakteri ilə diqqət çəkir. O, ölkənin problemlərini dərindən bilir, həmçinin digər yerlərdə olan insanların dərdlərini eşidir və onların həlli üçün bir sıra layihələr həyata keçirir.*

Əbdüləziz bin Osman
əl-Tüveycri
ISESCO-nun Baş direktoru

Dünyanın aparıcı kütləvi informasiya vasitələrində "Azərbaycan müsəlman ölkəsi olmasına baxmayaraq, planetimizin dünyəvi dövlətlərindən biridir"[43] , "Qərblə çox yaxşı əlaqələri olan Azərbaycanda yüksək dini tolerantlıq hökm sürməkdədir"[44] , "...Müqəddəs Roma katakombaları kompleksinin Heydər Əliyev Fondu tərəfindən bərpa edilməsi müsəlman dünyasının xristian aləminin bu mühüm abidəsinə töhfəsidir"[45] və ya "O, Azərbaycanı sivilizasiyalararası dialoqun mayakına və dini tolerantlığın mərkəzinə çevirib"[46] kimi cümlələrin yer aldığı məqalələrin dərc edilməsi özlüyündə Heydər Əliyev Fondunun və şəxsən Mehriban Əliyevanın bu istiqamətdəki fəaliyyətinin yüksək qiymətləndirilməsindən xəbər verir.

Mehriban Əliyevanın bu istiqamətdə gördüyü işlər beynəlxalq təşkilatların diqqətindən kənarda qalmayıb; o, 2006-cı ildə sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə ISESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə isə İslam Konfransı Təşkilatı Gənclər Forumunun "Sivilizasiyalararası dialoqun qlobal miqyasda təşviqinə görə" mükafatına layiq görülüb.





*Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz.*

Mehriban Əliyeva

Mehriban xanım Milli Məclisin deputatı kimi fəaliyyətində əsl peşəkarlıq, siyasi yetkinlik nümunəsi göstərir.

Hələ 2005-ci ildə məlum olanda ki, üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək seçkilərdə Mehriban xanımın deputatlığa namizədliyi irəli sürüləcək, Azərbaycanın müxtəlif bölgələrində yaşayan vətəndaşlar onun namizədliyinin məhz onların dairəsindən irəli sürülməsi təşəbbüsü ilə çıxış etməyə başladılar. Mehriban xanım ölkə Prezidenti ilə birlikdə Azərbaycanın müxtəlif regionlarında səfərdə olarkən ona çoxsaylı müraciətlər olunurdu ki, namizədliyi həmin rayondan verilsin. İctimaiyyətin bu müraciətləri bir həqiqətə əsaslanırdı: hamı aydın başa düşürdü ki, Mehriban xanımın Milli Məclisdə hansısa rayonu təmsil etməsi həmin regionun yüksəlişi, burada yaşayan insanların sosial-iqtisadi problemlərinin həlli, infrastrukturun yeniləşdirilməsi demək idi. O, öz seçimini etmişdi. Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizədliyi 14 saylı Əzizbəyov (indən sonra Xəzər) 2-ci seçki dairəsindən irəli sürülmüşdü. Təbii ki, bu seçim təsadüfi olmamışdı. Özünün də söylədiyi kimi, Bakı kəndləri onun üçün doğmadır və tezliklə bu kəndlərdə böyük dəyişikliklərin olacağını vəd edirdi. "Mən öhdəmə götürdüyüm hər bir işə çox böyük məsuliyyətlə yanaşıram. Hər zaman öz fəaliyyətimdə çalışmışam bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətlilikdir"[47] deyən Mehriban xanım Xəzər rayonunda öhdəsinə götürdüyü hər bir işi vaxtında həll etdi.







Adətən, seçkiqabağı təşviqat dövründə maraqlı ideyalar gündəmə gətirilir. Deputatlığa namizədlər seçki zamanı vətəndaşların dəstəyini qazanmaq üçün xalqa doğru gedərək, ardıcıl görüşlər keçirir, bir-birindən fərqli platformalar açıqlayırlar. Belə bir təsəvvür yaranır ki, bu platformalarda irəli sürülən müddəalar real işə çevrilərsə, qısa müddətdən sonra konkret ərazilərin bütün problemləri öz həllini tapacaqdır. Mehriban Əliyevanın deputatlıq fəaliyyətini fərqli edən ən əsas məqam isə bundan ibarətdir ki, o, seçicilər qarşısına pafoslu platformalarla çıxmamış, sadəcə mövcud çətinlikləri dəqiqliklə öyrənmiş, seçkiqabağı kampaniya zamanı seçicilərlə görüşlərdə qaldırılan məsələlərin həlli, verilmiş vədlərin yerinə yetirilməsi vəziyyəti ilə tanış olmaq məqsədi ilə Bakıətrafı qəsəbələrə səfərlərini parlament seçkilərindən sonra daha da intensivləşdirmişdir[48].








KITABXANASI











Mehriban xanım seçkiqabağı görüşlərə gəlməzdən əvvəl Xəzər rayonunun iqtisadi potensialını, başlıca problemlərini, əhalini narahat edən məsələləri diqqətlə öyrənir, əldə edilən məlumatları ümumiləşdirir, qəsəbələrin hər biri üçün yaxın iki ili əhatə edən kompleks tədbirlər planı tərtib etdirirdi. Qəsəbələrin hər birində məktəb, xəstəxana, idman kompleksi, klub və kitabxanaların inşası, təmirə ehtiyacı olan obyektlərdə əsaslı yenidənqurma işlərinin aparılması, yol, nəqliyyat, su, təbii qazla təminat sahəsindəki xeyli problemlərin yaxın vaxtlarda həlli prioritet məsələlər kimi tədbirlər planında öz yerini tuturdu.

O, rayonun bütün kəndlərini bir-bir gəzir, oradakı şəraitlə tanış olurdu. Əksər obyektlərdə vəziyyət ağır idi, binalar yararsız, maddi-texniki baza köhnə idi. Mehriban xanım köhnə binaların əsaslı təmirinə, yaxud yenidən tikilməsinə ehtiyac olduğu halda monitorinqlərin aparılmasını və mütəxəssislərin rəyindən sonra dərhal işə başlamağı tapşırırdı.

*O, deputat olmazdan əvvəl də artıq uzun illər ərzində çox fəal ictimai işlər görürdü. Bu, həm xəstələrə, uşaqlara və aztəminatlı insanlara yardım, həm sosial və mədəni proqramlar idi. Buna görə də onun seçkilərdə asanlıqla qalib gələcəyinə bizim heç bir şübhəmiz yox idi.*

İlham Əliyev
Azərbaycan Respublikasının
Prezidenti



İlk zamanlar Mehriban xanımın Xəzər rayonunda ictimaiyyətlə görüşlərinin keçirilməsi üçün müvafiq yer müəyyən edə bilmirdik. Rayonda normal şəraiti olan mədəniyyət mərkəzi belə yox idi, görüşləri köhnə məktəb binalarının akt zalında keçirmək məcburiyyətində idik. Elə o vaxtlar Mehriban xanımın tapşırığı ilə rayonda mövcud olan problemlərin ardıcıl və vaxtında həyata keçirilməsi məqsədi ilə Əzizbəyov rayonunun İnkişafı Fondu (ind. Xəzər İnkişaf Fondu) təsis edildi. Bu gün artıq Xəzər rayonu tamamilə yeni mənzərəyə malikdir. İnsanları ən çox narahat edən problemlər uğurla öz həllini tapıb. Yeni yollar çəkilib, parklar salınıb, təhsil, tibb, mədəniyyət obyektləri istifadəyə verilib. Bir neçə il bundan əvvəl heç bir rayon sakininin ağlına belə gəlməzdi ki, rayonun siması qısa müddət ərzində tamamilə dəyişəcək. Mehriban xanım öz fəaliyyəti ilə sübut etdi ki, əzmkarlıq, işləri düzgün qurmaq bacarığı olan yerdə həlli mümkünsüz sayıla biləcək heç bir problem yoxdur.

İnsanların inamını qazanmış Mehriban xanım 2005-ci il noyabrın 6-da Milli Məclisə keçirilmiş seçkilərdə 92,12% (23106 səs) səs, 2010-cu il noyabrın 7-də keçirilmiş seçkilərdə isə 94,49% (31797 səs) səs toplayaraq deputat seçildi.






XOŞ GƏLMİŞSİNİZ



2005-ci il. Xəzər rayonu ictimaiyyəti ilə görüş keçirilir. Zirədə keçirilən görüş zamanı ağbirçək bir qadın Mehriban xanıma yaxınlaşaraq onu sidq ürəklə öz evinə çay içməyə dəvət edir. Mehriban xanım gələn dəfəki səfəri zamanı mütləq onun qonağı olacağına söz verir. Bir neçə ay sonra, 2006-cı ilin fevralında Xəzər rayonunda keçirilən tədbirlər bitər-bitməz Mehriban xanım həmin o qadının, 80 yaşına çatan Badam nənənin evinə getməyi unutmur. Uzun illər qəsəbə sovetinin katibi, sonra isə uşaq bağçasının müdiri işləmiş, öz həmyerlilərinin hörmətini qazanmış Badam nənə onu sonsuz sevinc hissi ilə, ən xoş sözlərlə qarşılayaraq, verdiyi bütün vədlərə əməl edən Mehriban xanıma səmimi arzularını yetirdi. Mehriban xanım onunla hal-əhval tutaraq səhhəti ilə, dolanışığı, ailəsinin vəziyyəti ilə maraqlandı, öz hədiyyələrini təqdim etdi, onun mənzilinin təmir edilməsi və avadanlıqla təmin olunması barədə tapşırıqlarını verdi.

Buraya hər gəlişində "Qızımsan, balamsan, mən səninlə nəfəs alıram", - deyib Mehriban xanımı bağrına basan Badam nənədən hal-əhval tutması, onu çay süfrəsinə dəvət etmiş insanların dəvətini məmnunluqla qəbul edib onlarla səmimi söhbət etməsi ona olan hörmət və sevgini daha da artırır. Mehriban xanımın Xəzər rayonuna hər bir səfəri sakinlər üçün əsl bayrama çevrilir, çünki onunla görüşə toplaşan bütün insanlar bir sıra problemləri ilə bağlı xahiş və arzularını ona çatdırır. Mehriban xanım qaldırılan məsələlərin hamısının diqqətlə öyrəniləcəyini, imkan daxilində kömək göstəriləcəyini bildirir. Verdiyi sözün əməli işlə təsdiq olunması onun xarakterinin üstün cəhətlərindən biridir. Məhz buna görə də insanlar problemlərinin tez bir zamanda həll olmasına inanır və bunun şahidi olurlar.







Onun vədlərinə inamsız yanaşdıqlarına görə sonradan yaxınlaşıb üzr istəyən insanlar da olub. Mehriban xanımın səmimi rəftarının nəticəsidir ki, insanlar da ona öz ürək sözlərini deməkdən çəkinmirlər: "Televiziya ekranlarında nəvələrimizin də bir-birinə "bizim deputatımızdır" deyə fəxrlə göstərdiyi Mehriban xanım, düz bir il əvvəl Siz Zirə ağsaqqallarını yığıb problemlərimizi soruşanda, mən kənd ağsaqqalları adından bir neçə məsələni diqqətinizə çatdırdım. Fikirləşdim ki, zərif bir qadının çiyninə bu qədər problemin həllini qoymaqla, bəlkə də, günah iş görürəm. İndi, bir ildən sonra Sizə camaatımız adından ancaq "Sağ olun, Allah xoşbəxt ailənizi başacan eləsin!" deməyə gəlmişəm. Siz bizim dilə gətirmədiyimiz, özünüzün gəzib gördüyünüz çatışmazlıqları da aradan qaldırmışsınız".


HEYDƏR ƏLİYEV
TÜRKAN


TƏŞƏBBÜSÜ İLƏ İNŞA EDİLƏN
POLİKLİNİKASI



Milli Məclisdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü olan Mehriban Əliyevanın Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi 2006-cı ilin dekabrında ABŞ-a işgüzar səfəri iki ölkə arasında dostluq münasibətlərinin genişlənməsində, Azərbaycan həqiqətlərinin təqdimatında əhəmiyyətli rol oynamışdır.

Mehriban Əliyevanın Ağ evdə ABŞ-ın birinci xanımı Lora Buş, məşhur siyasi xadim Zbiqnev Bjezinski, senator Key Beyli Hatçinson və Konqresin üzvü Şila Sikula Gibs, dövlət katibinin ictimai diplomatiya və ictimai məsələlər üzrə müavini Karen Hyuz, dövlət katibinin demokratiya və qlobal məsələlər üzrə müavini Paula Dobryanski ilə səmimi görüşləri, Heydər Əliyev Fondu və senator Hatçinsonun həmsədri olduğu "Vital Voice" qeyri-hökumət humanitar təşkilatı arasında əməkdaşlığa dair memorandumun imzalanması, Azərbaycanın ABŞ-dakı səfirliyində Amerikanın müxtəlif ştatlarında təhsil alan azərbaycanlı tələbələrlə görüşü yaddaqalan olmuşdur. ABŞ-Azərbaycan Ticarət Palatasının 10 illiyi münasibətilə Vaşinqtonun möhtəşəm "Endryu Melon" Auditoriumunda Mehriban Əliyevanın şərəfinə verilmiş ziyafətdə Ağ evin və Dövlət Departamentinin yüksəkvəzifəli rəsmilərinin, konqresmenlərin, görkəmli siyasi və ictimai xadimlərin, xarici ölkələrin ABŞ-da akkreditə olunmuş səfirlərinin – 300-dən artıq insanın iştirakı, ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri, dünyada çox böyük nüfuz sahibi olan Ceyms Beykerin, ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri, senator Riçard Luqarmın geniş nitqlə çıxış etmələri Azərbaycan Prezidentinin xanımının beynəlxalq aləmdə nüfuzuna, şəxsi mövqeyinə, ictimai fəaliyyətinə verilən yüksək qiymətin konkret ifadəsi oldu[49].









Mehriban xanımın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. Bununla o, insan hüquqlarının qorunmasına, vətəndaş cəmiyyəti ideyalarının ictimai şüurda daha da möhkəmlənməsinə, cəza siyasətinin humanistləşdirilməsi prosesinə böyük töhfə vermiş oldu.

Müasir qloballaşma dövründə hər bir sivil cəmiyyətdə insan hüquqlarının təminatına və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına xidmət edən amnistiya aktları olduqca yüksək dəyərləndirilir. Amnistiya humanizm, mərhəmət hissinin mücəssəməsi olub, cinayət törətmiş şəxslərin və məhkumların vəziyyətini yüngülləşdirir. Azadlıq ölçüsü və sərbəst fəaliyyət meyarına çevrilən amnistiya aktları özlərində ciddi təbliğati-siyasi məzmun ehtiva etməklə, dövlətlərin beynəlxalq nüfuzunun formalaşmasına da mühüm təsir göstərir[50].

2007-ci il mayın 8-də Mehriban xanımın hazırladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsinin müzakirəsində o, öz çıxışında qeyd etmişdir ki, "...səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər. Ağır cinayət törətməyən insanları bağışlayaraq, biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk"[51].

Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktı böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır[52].

Amnistiya qərarlarının qəbulu ilə bağlı ölkədə formalaşmış müsbət ənənənin Heydər Əliyev Fondu tərəfindən geniş miqyasda davam etdirilməsi həm də humanist dəyərlərin ictimai şüurda möhkəmlənməsinə imkan yaratmışdır. Mehriban xanımın bu addımı ictimaiyyət tərəfindən səmimiyyətə söykənən xeyirxahlığın növbəti təcəssümü kimi dəyərləndirildi. O, bu nəcib təşəbbüsü ənənəyə çevirərək 2009 və 2013-cü illərdə də eyni müraciətlə çıxış etmiş və nəticədə 2009-cu ildə 9564, 2013-cü ildə isə təqribən 9000 nəfər azadlığa buraxılmışdır. Yekdilliklə qəbul olunan amnistiya aktları Mehriban xanımın insanpərvərlik, humanizm və ədalət kimi ali dəyərlərə sadiqliyini, insan və vətəndaş hüquq və azadlıqlarına həssas münasibətini əks etdirdi.

*Bizim məqsədimiz Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırmaq və məkrli erməni təbliğatını ifşa etməkdir.*

Mehriban Əliyeva

Onu dövlətimizin gələcəyi üçün müstəsna əhəmiyyət kəsb edən layihələri həyata keçirməyə sövq edən yenə də xalqına olan istəyidir. Azərbaycanın tarixi həqiqətlərinin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, onun nəticəsində ölkəmizə vurulan ekoloji, sosial-psixoloji, iqtisadi və maddi-mənəvi zərərin, işğal olunmuş ərazilərdə törədilən vandalizmin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasını o, Heydər Əliyev Fondunun əsas hədəflərindən biri kimi müəyyən etmişdir. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunmasını, 20 mindən artıq insanın həlak olmasını, 50 mindən çox adamın yaralanmasını və əlil olmasını, 1 milyondan çox insanın öz doğma torpağından didərgin düşərək, qaçqın və məcburi köçkün vəziyyətində yaşamasını – bütün bu hadisələri, faktları Dağlıq Qarabağ münaqişəsinin əsl səbəb və dəhşətli nəticələrini beynəlxalq ictimaiyyətə çatdırmaq, informasiya blokadasını yarmaq, erməni diasporu tərəfindən yayılan yalan və uydurmaları ifşa edib qarşısını almaq Heydər Əliyev Fondunun fəaliyyətində həmişə mühüm yer tutub.

Bu istiqamətdə ilk addım 2004-cü ilin sonlarında atıldı. Həmin vaxt Heydər Əliyev Fondunun ilk genişmiqyaslı layihələrindən birinə başladıq. Bu, Azərbaycan həqiqətlərinin internet şəbəkəsi vasitəsilə dünyaya yayılmasına, xalqımızın min illər boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılmasına xidmət edən "Azərbaycan" internet portalının yaradılması layihəsi idi. Mehriban xanım tərəfindən qarşımıza məqsəd qoyulmuşdu – materialların əhatəliyinə, istifadə olunmuş internet texnologiyalarına görə respublikada analoqu olmayan portal yaratmaq. Erməni lobbisinin Azərbaycana qarşı informasiya müharibəsinin apardığı bir dövrdə qısa müddət ərzində Azərbaycan reallıqlarının təbliği baxımından müstəsna əhəmiyyət daşıyan portalın yaradılması ölkəmiz üçün çox əlamətdar bir hadisə idi. Portalın təqdimat mərasimində Mehriban xanım qarşımıza qoyulmuş məqsədi təfərrüatı ilə açıqladı: "Ölkəmizin beynəlxalq imicinə zərbə vuran, böhtan, yalan yayan, yanlış mövqeli, o cümlədən xalqımızın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsi barədə Ermənistanın mövqeyini əks etdirən külli miqdarda müxtəlifdilli saytlar da mövcuddur. Məhz bütün bunlara görə biz "Azərbaycan" portalının yaradılmasını çox zəruri hesab etdik. Bunu vaxtında atılmış bir addım kimi qiymətləndiririk. Əminəm ki, ölkəmizin ən qədim tarixindən tutmuş bugünkü reallığına qədər dövrü özündə əks etdirən bu portal çox problemlərin həllində mühüm rol oynayacaqdır"[53].









Onun təşəbbüsü ilə BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında "Azərbaycan otağı"nın, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı, Avropa Parlamenti, UNESCO kimi mötəbər qurumların mənzil-qərargahlarında Azərbaycanla bağlı tədbirlərin, dünyanın aparıcı dövlətlərində Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi ölkəmizin nüfuzunun beynəlxalq arenada daha da möhkəmlənməsinə xidmət edir.

Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün hər bir fürsəti böyük imkana çevirir Mehriban xanım. Xoşməramlı səfiri olduğu UNESCO-nun siyasətdən uzaq olan bir qurum olduğuna baxmayaraq, işğal olunmuş ərazilərdə dağıdılan tarixi və mədəni abidələrdən, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqların təhsil almaq imkanlarından söz açaraq mötəbər qurumun tribunasından yenə də bütün diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə yönəldir.



XOCALI SOYQIRIMI
DÜNYA BIRLIYI SUSUR,
TARIX SUSMAYACAQ!
UNUTMAYAQ!!
VİRAN EDİLƏN
XOCALI YENİDƏN
DİRÇƏLƏCƏK!
26 FEVRAL
20 IL




Münaqişə haqqında həqiqətlərin dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasını əsas hədəf kimi qarşımıza qoyan Mehriban xanım müxtəlif dillərdə Qarabağın tarixi, o vaxtlar bir çox ölkələrin az məlumatlı olduğu Xocalı faciəsi, erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti, erməni təcavüzünün nəticələri haqqında müfəssəl məlumatın toplandığı və oxucunun üstündə gəzdirə biləcəyi qədər rahat formatda hazırlanmış nəşrlərin çap olunmasını tapşırdı. "Xocalıya ədalət" kampaniyası çərçivəsində dünyanın bir çox ölkəsində hər il keçirilən aksiyalarda yüz minlərlə belə bukletlərin paylanılması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq ictimaiyyəti düzgün məlumatlandırmaq baxımından strateji bir addım oldu. Bütün bu məqsədyönlü səylərin nəticəsində bu gün bir neçə ölkənin XX əsrin ən dəhşətli soyqırımı hadisəsi və beynəlxalq cinayət kimi təsdiq olunmuş Xocalı faciəsini rəsmən soyqırımı kimi qəbul etməsi hədəfimizə doğru inamla addımlamağımıza təkan verir.



Mehriban xanım iştirak etdiyi hər tədbirdə xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasına xüsusi diqqət yetirir və buna nail olur. O, bütün xarici səfərlərində Azərbaycan torpaqlarının 20 faizinin işğal edilməsindən, ölkədə 1 milyondan çox qaçqın və məcburi köçkünün olmasından, mədəni irsimizin Ermənistanın təcavüzünə məruz qalmasından danışır və dünya ictimaiyyətini Ermənistanın işğalçı siyasətinə son qoymaq üçün təsirli tədbirlər görməyə çağırır: "Dünya birliyi tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon uzun illərdir ki, Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Ölkə ərazisinin 20 faizi işğal altındadır, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün həyatı yaşayır. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları əsasında tezliklə həllinin tərəfdarıdır. BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmalıdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir"[55].




QUBA QƏZASININ ƏHALİSİ





Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin köklərinin XX əsrin 80-ci illərinə deyil, ondan daha neçə-neçə illər əvvələ gedib çıxdığını faktlarla beynəlxalq ictimaiyyətə çatdırmaq məqsədi ilə Mehriban xanımın təşəbbüsü ilə ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilir.

2007-ci ildə Quba şəhərində tikinti məqsədi ilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ilin may ayında Qubanın müsəlman əhalisinə qarşı ermənilər tərəfindən törədilmiş soyqırımının əyani sübutu olmuşdur. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilmişdir. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir.

Ötən əsrin əvvəllərində bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi etnik təmizləmə və təcavüz siyasəti nəticəsində Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə on minlərlə günahsız azərbaycanlı qətlə yetirilmiş, xalqımıza qarşı XX yüzilliyin ən faciəli soyqırımlarından biri törədilmişdir. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə dağıdılmış, Quba şəhərinin özü isə talanlara və yanğınlara məruz qalmışdır.





Erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı 1918-ci ildə bütün ölkə hüdudlarında həyata keçirdikləri cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılmasına qərar verildi.

Mehriban xanımın rəhbərliyi ilə həyata keçirilən layihə nəticəsində 2011-2013-cü illərdə Quba şəhərində Memorial kompleks inşa edildi. Tarixçilər, etnoqraflar, tədqiqatçılar və bir sıra başqa mütəxəssislərdən ibarət yaradılmış işçi qrupunun hər mərhələdə gördüyü işlər barədə Mehriban xanıma davamlı olaraq məruzələr edilirdi. Azərbaycan torpaqlarında "böyük Ermənistan" yaratmaq istəyən erməni millətçilərinin 1918-ci ildə bütün ölkə hüdudlarında Azərbaycan xalqına qarşı törətdiyi cinayətkar əməllərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacaq bu muzey yaradılarkən binanın layihəsindən tutmuş ən xırda detallara kimi hər şey Mehriban xanımla bilavasitə razılaşdırılırdı. Azərbaycanda ilk dəfə olaraq yaradılan soyqırımı abidə-memorial kompleksinin açılışında iştirak edən Prezident İlham Əliyev Heydər Əliyev Fondunun məkrli erməni təbliğatının ifşası istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Heydər Əliyev Fondu Xocalı soyqırımının dünyada soyqırımı kimi tanıdılmasında çox böyük işlər görür. Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasında da Heydər Əliyev Fondunun fəaliyyətini xüsusilə vurğulamaq istəyirəm. "Xocalıya ədalət!" kampaniyasının başlanması və uğurla davam etdirilməsində də Heydər Əliyev Fondu, bizim diaspor təşkilatlarımız və əlbəttə ki, Azərbaycan dövləti bir nöqtəyə vurur və artıq tədricən istədiyimizə nail oluruq"[56].









*İdman sağlamlıq rəmzidir, idman gözəllik rəmzidir, idman milli qürur və milli həmrəylik rəmzidir.*

Mehriban Əliyeva

Mehriban Əliyevanın gərgin və çoxşaxəli fəaliyyətində idmanın inkişafına da xüsusi önəm verilir. Ümumiyyətlə, son illər idmanın inkişafına göstərilən yüksək dövlət qayğısı nəticəsində Azərbaycan idmançıları dünyanın mötəbər yarışlarında və Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil edir, bir-birinin ardınca parlaq qələbələr əldə edirlər. Dünya çempionatlarında və beynəlxalq Olimpiya yarışlarında qızıl medal qazanmış idmançılarımızın sayı ildən-ilə artır.

Azərbaycanda bir çox sahələrdə olduğu kimi, müasir idman infrastrukturunun yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Respublika üzrə inşa edilən və ən müasir avadanlıqla təchiz olunan Olimpiya İdman komplekslərinin sayı artıq 40-ı ötmüşdür. Ölkəmiz hazırda beynəlxalq Olimpiya hərəkatının fəal üzvlərindən biridir.









Tərkibində idmanın dörd növünü – bədii gimnastika, kişi idman gimnastikası, akrobatika gimnastikası və tamblinqi birləşdirən Azərbaycan Gimnastika Federasiyasının son illər ərzində əldə etdiyi böyük uğurlar dünyanın idman ictimaiyyəti tərəfindən maraqla izlənilir. Bütün bu nailiyyətlər birinci xanım Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərliyi sayəsində mümkün olmuşdur. Belə ki, 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban Əliyevanın fəaliyyəti nəticəsində ölkədə idmanın bu növünün yeni inkişaf mərhələsi başlamışdır[57].

Mehriban xanım Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçildiyi ilk vaxtlardan ölkəmizdə bədii gimnastika üzrə beynəlxalq turnirlərin keçirilməsi barədə təkliflə çıxış etməyə başladı. Onun rəhbərliyə gəldiyi qısa müddət ərzində federasiyanın gördüyü işlər Beynəlxalq Gimnastika Federasiyasının nəzərindən kənarda qalmadı və qurumun Afinada keçirilən 74-cü konqresində bədii gimnastika üzrə Dünya kubokunun “A” kateqoriyalı mərhələsinin 2003-cü ilin avqustunda ilk dəfə olaraq Azərbaycanda keçirilməsi qərara alındı. Dünya kubokuna hazırlıq işləri ilə tanışlıq məqsədi ilə Bakıya səfər etmiş Beynəlxalq Gimnastika Federasiyası rəhbərləri Azərbaycanda bədii gimnastikanın maddi-texniki imkanlarını yüksək qiymətləndirərək, 2004-cü ildə bədii gimnastika üzrə növbəti Dünya kuboku mərhələsinin, 2005-ci ildə isə dünya çempionatının Bakıda keçirilməsinə razılıq verdilər.


MGA


MGA
MGA

2003-cü ilin avqustunda 17 ölkə təmsilçilərinin iştirakı ilə Bakıda yüksək səviyyədə keçirilən Dünya kuboku mərhələsi yarışın bütün iştirakçılarının – gimnastların, hakimlərin, məşqçilərin, Beynəlxalq Gimnastika Federasiyasının rəsmilərinin və ən əsası, idman həvəskarlarının hafizəsində silinməz izlər buraxdı. Yarışın təşkilində ən incə məsələlərə belə diqqətlə yanaşan federasiya prezidenti Mehriban Əliyeva hətta Dünya kubokunun keçiriləcəyi arenanın tərtibatında da öz dəyərli məsləhətlərini əsirgəmədi. Son nəticə isə məlumdur – ilk dəfə belə yüksək təşkilatçılıqla qarşılaşan nümayəndə heyətləri mehriban, istiqanlı, qonaqpərvər insanların vətənindən razılıqla ayrıldıqlarını hər fürsətdə dönə-dönə təkrarlayırdılar[58].

Bakıda bədii gimnastika üzrə Dünya kubokunun "A" kateqoriyalı mərhələsinin (2003), Dünya kubokunun (2004), AGF-nin bədii gimnastika üzrə birinci Kubokunun (2005), bədii gimnastika üzrə 27-ci dünya çempionatının (2005), 23-cü (2007), 25-ci (2009), 30-cu (2014) Avropa çempionatlarının keçirilməsi Mehriban xanımın gimnastikanın inkişafı istiqamətində apardığı məqsədyönlü fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirilir.




AtaHolding







2012-ci il dekabrın 8-də bütün ölkə ictimaiyyəti Avropa Olimpiya Komitəsi Baş Assambleyasının 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul etməsinin sevinc və qürurunu yaşadı. Təbii ki, bu qərar verilərkən ölkəmizin beynəlxalq nüfuzunun artması, Azərbaycanın dünya miqyasında özünü dinamik inkişaf edən müasir güclü ölkə kimi təqdim edə bilməsi, etibarlı tərəfdaş kimi tanıtması və s. kimi müxtəlif amillər nəzərə alınmışdır. Bu tarixi qərarın verilməsi, eyni zamanda, cəmiyyətimizə xas olan yüksək tolerantlıq mühitinə, iri beynəlxalq tədbirlərin təşkili sahəsində əldə edilmiş zəngin təcrübəyə möhkəm inamın təzahürü və ölkəmizin idman sahəsində qazandığı uğurların tanınması kimi dəyərləndirilir.


Mairie de Cannes
FONDATION HEYDAR ALIYEV
Baku 2015
1st EUROPEAN GAMES
Race on La Croisette







Birinci Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədi ilə 2013-cü il yanvarın 17-də Təşkilat Komitəsi yaradıldı və onun sədri Mehriban Əliyeva təyin olundu. 2012-ci ildə hər bir Bakı sakini Mehriban xanımın "Eurovision" Mahnı Müsabiqəsinin uğurla keçirilməsi naminə səylərinin şahidi idisə, indi hamı onun 2015-ci ildə Bakıda keçiriləcək Birinci Avropa Oyunlarına hazırlıq işlərində gərgin fəaliyyətinin şahididir. Artıq Birinci Avropa Oyunlarının xarici ölkələrdə təqdimatına başlanılıb. 2014-cü ilin iyulunda Fransanın Kann şəhərində Birinci Avropa Oyunlarının təqdimatını keçirdik.







...250 nəfərin iştirak edəcəyi möhtəşəm tədbirin başlanmasına bir neçə saat qalırdı. Hər bir tədbirdən öncə olduğu kimi, bütün incəliklər düşünülmüş, mərasim açıq havada keçirildiyinə görə əvvəlcədən hava proqnozu ilə mütləq şəkildə tanış olmuşduq. Birinci Avropa Oyunlarının ölkədən kənarda ilk təqdimatını yüksək səviyyədə keçirmək üçün xüsusi proqram tərtib olunmuş və tədbirin atəşfəşanlıqla yekunlaşması nəzərdə tutulmuşdu. Gözlənilmədən hava şəraiti kəskin dəyişdi və yağış yağmağa başladı. Belə şəraitdə təqdimat mərasiminin planlaşdırıldığı kimi açıq havada keçirilməsi, çətin ki, baş tutardı. Təbiət qarşısında gücsüzlüyümüzü qəbul edib istehza ilə nə edəcəyimizi soruşan insanlara nə cavab verəcəyimizi bilmirdik. Gözümün önündə illər öncə baş vermiş oxşar hadisə canlandı. 2011-ci ilin sentyabr ayı idi. Mehriban xanımın təşəbbüsü ilə Qala Dövlət Tarix Etnoqrafiya Qoruğunun ərazisindəki abidələrin qorunması, Abşeronda aşkar edilən arxeoloji tapıntılar hesabına qoruğun zənginləşdirilməsi məqsədi ilə açıq səma altında yaradılmış Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin ərazisindəki Qala Əntiq Əşyalar Muzeyinin açılış mərasimi idi. Tədbirdə Fondun prezidenti ilə yanaşı, Prezident İlham Əliyevin də iştirakı gözlənilirdi. Gözlənilmədən aramsız yağmağa başlayan yağış bizi aciz vəziyyətə salmışdı. Əlimizdən heç nə gəlmirdi və biz sanki bir möcüzənin olacağını gözləyirdik. Tədbirin başlanmasına 15 dəqiqə qalmış hava açıldı, yağış kəsdi və tədbir öz axarı ilə baş tutdu. Bu, bizim üçün əsl möcüzə idi. ...İndi Kannda bu hadisəni xatırlayarkən yenidən bir möcüzənin baş verməsini gözləyirdim. Hər kəsin gözü saata və dayanmadan yağan yağışa, göyə dikilmişdi. Tədbirin başlanmasına çox az vaxt qalırdı... Və yenə də o möcüzə baş verdi. Qəflətən yağmağa başlayan yağış elə qəflətən də kəsdi, qızmar yay günəşi çıxdı, saatlarla barjaları suya endirməyə imkan verməyən dalğalar yatdı və tədbiri yüksək səviyyədə keçirməyə müvəffəq olduq. İndi hər iki hadisəni xatırlayarkən, düşünürəm, görəsən, 2008-ci ildə möcüzə kimi qəbul etdiyim hadisənin ölkəmizdən uzaqlarda, Fransada təkrarlanmasının öz nəcib əməlləri ilə minlərlə insanın sevincinə səbəb olmuş Mehriban xanımla həqiqətən bir bağlılığı vardırmı?...



*Heydər Əliyev Azərbaycan dövlətini qurmaqla, müstəqil Azərbaycan dövlətçiliyini yaratmaqla yanaşı, onun əbədiyyətə qədər var olmasını təmin edən böyük bir yol göstərmişdir. Bu yolu Prezident İlham Əliyev və ona hər zaman dayaq olan Mehriban Əliyeva çox böyük məharətlə davam etdirirlər.*

Fəttah Heydərov
Azərbaycan Ağsaqqallar Şurasının sədri

O, bütün çıxışlarında Azərbaycanın Birinci Avropa Oyunlarını Yay Olimpiya Oyunları səviyyəsində keçirmək əzmində olduğunu vurğulayır və oyunlara hazırlıq üçün çox az vaxt olmasına baxmayaraq, bu yarışların yüksək səviyyədə keçirilməsi üçün bütün tədbirlərin vaxtında görülməsinə şəxsən nəzarət edir. Avropa Olimpiya Komitəsinin nümayəndə heyəti Bakıya dəfələrlə səfər edərək görülən işlərlə tanış olmuş və ölkəmizdə mövcud olan və yaradılan idman infrastrukturunun yarışların yüksək səviyyədə keçirilməsinə imkan verəcəyinə əminliyini bildirmişdir.

İndi hər kəs səbirsizliklə Bakıda keçiriləcək Birinci Avropa Oyunlarını gözləyir, çünki hər kəs bu oyunların təntənəsinə, yarışların idman tarixinə həm ilk, həm də ən yaddaqalan oyunlar kimi daxil olacağına inanır.




Patrick Hickey
President, European Olympic Committees
Patrick HICKEY





*Ailə mühitini müəyyənləşdirən amillər çoxdur, amma, yəqin ki, başlıcası bir ümumi dalğaya köklənən fikir və dəyərlərin birliyidir. Bir-birinə son dərəcə diqqətli münasibət çox vacibdir. Əgər ailədə hər bir kəs özünün vacibliyini və əvəzedilməzliyini duyursa, özünün müdafiə olunduğunu və sevildiyini hiss edirsə - bu, yalnız gələcək ailə səadətinin əsası deyil, həm də hər bir məqsədə çatmaq üçün möhkəm bir stimuldur.*

Mehriban Əliyeva

Daşıdığı ictimai yükün ağırlığına, gərgin iş qrafikinə, çoxşaxəli fəaliyyətinə baxmayaraq, o, qayğıkeş övlad, həyat yoldaşı, ana və nənədir. Özünün də etiraf etdiyi kimi, o, ötən əsrin bütün mürəkkəbliklərinə baxmayaraq, öz ideallarına, mənəvi dəyərlərinə, milli ənənələrinə sadiq qala bilən Azərbaycan ziyalılarının əhatəsində böyümüşdür. İctimai şüurda xeyirxahlıq mücəssəməsi kimi qəbul edilən Mehriban xanımın insani keyfiyyətləri, ailə dəyərlərinə sadiqliyi onun görkəmli alim, Dövlət mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, akademik Arif Paşayevin və Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk qadın-professor Aida İmanquliyevanın övladı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və tibb elmləri doktoru, akademik Zərifə Əliyevanın gəlini olmasından da qaynaqlanır.









*Təbii ki, hər bir ana kimi, mənim də anam gəlin tapmağa çalışırdı. Amma Mehribanla tanış olanda özlüyümdə qərara aldım ki, bax, bu qız xoşuma gəlir. ... Əlbəttə, zahiri görünüş böyük rol oynayır. Amma onun daxili aləmindən gələn və indi də gəlməkdə olan mehribanlıq, yəqin ki, zahiri görkəmi ilə yanaşı daha çox cəlb edirdi.*

İlham Əliyev











İctimai fəallığı ilə insanlara örnək olan Mehriban xanım qadının ailədəki rolu və ailəyə münasibətini hər zaman önə çəkib. "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm"[59] söyləyən Mehriban xanım, eyni zamanda, qadını ailədə sülhün, razılığın və məhəbbətin təminatçısı hesab edir: "Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır və dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər".



*Mənim üçün ailə dəyərləri birinci yerdə durur. Nə qədər qəribə görünsə də, bu, belədir. Bu məsələdə riyakarlıq etmək istəmirəm. Başqa məsələdir ki, prezident olduqdan sonra ölkədəki vəziyyətə görə bütün məsuliyyət mənim üzərimə düşür və əlbəttə ki, bütün diqqətim və səylərim bu istiqamətə yönəlib. Eyni zamanda, ailə həyatı insan ömrünün ayrılmaz və daha mühüm hissəsidir. Buna görə də, əlbəttə, öz işimdə bu, mənə çox kömək edir. Mən evə gedəndə bilirəm ki, ailəmin, uşaqlarımın olduğu rahat mühitə düşəcəm. ..Bu, vacibdir, bu, böyük xoşbəxtlikdir. Bunu qiymətləndirmək və qədrini bilmək lazımdır.*

İlham Əliyev







Maraqlıdır ki, müsahibələrindən birində ölkə Prezidenti də eyni fikri paylaşmışdı: "Axşam evimin kandarından içəri keçəndə, əgər heç bir fövqəladə hadisə, zəng yoxdursa, bütünlüklə, tamam başqa mühitə – onilliklər boyu olduğum ailə həyatı mühitinə düşürəm. Biz axşamlar, yaxud bazar günü vaxtımızı evdə keçirməyi hər şeydən çox xoşlayırıq. Bizim üçün bu, vaxt keçirməyin ən yaxşı yoludur. ...Onun ictimai yükü çox böyükdür. Hətta birinci xanımın funksiyaları da – protokol tədbirləri və s. çox böyük qüvvə tələb edir. Bütün bunlar onu sevimli məşğuliyyətindən, evdə, uşaqların və nəvələrin əhatəsində olmaq, sadəcə divanda əyləşmək və söhbət etmək, adi ömür sürmək imkanından ayırır. Lakin, belə deyək, bizim bir yerdə olmadığımız hallar il ərzində çox olmur. Biz həmişə bir-birimizə can atırıq, yanaşı olmaq istəyirik[61]".





*Mən çox istəyirəm ona oxşayım, lap çox. Çünki o, çox xeyirxah insandır. O, mənim anamdır, eyni zamanda, mənim üçün prinsipcə hər cəhətdən idealdır. Mənə elə gəlir ki, o, hər nə edirsə, düz edir. Mənə elə gəlir bu adam ümumiyyətlə heç nəyi səhv edə bilməz.*

Leyla Əliyeva





*Hesab edirəm ki, mənim anam dünyanın ən yaxşı, ən gözəl birinci xanımıdır. Düşünürəm ki, ölkəmizin bu cəhətdən bəxti çox gətirib.*

Arzu Əliyeva











*Mənim üçün mənim anam dünyanın ən mehriban, ən qayğıkeş və ən gözəl insanıdır. Mən onu dünyalar qədər sevirəm.*

Heydər Əliyev







Nəvələrinin dünyaya gəlməsini son illər ərzində həyatının ən yaddaqalan hadisələri hesab edən Mehriban xanım onların doğulmasını həyatı dəyişən və həyata tamamilə fərqli baxmağa vadar edən möcüzə olduğunu bildirir.

Fiziki və mənəvi baxımdan sağlam ailə sağlam cəmiyyətin, güclü dövlətin özülüdür, deyirlər. Çıxışlarının birində "Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan, əgər tarixə də nəzər salsaq görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar olunması üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır"[62] söyləyən Prezident İlham Əliyevin ailə üzvləri hər addımında bu dəyərləri üstün tutduğunu aydın nümayiş etdirirlər.



*Mən həmişə ona görə narahatam, çünki o, meydana çıxıb, hədəfə çevrilib. İnsanlar, sadə insanlar daim ondan danışırlar. Ümumiyyətlə, əhalinin bütün təbəqələri ona öz rəğbətini bildirirlər və o da belə atmosferdə səhv etməməlidir. O, heç bir, hətta xırda qüsurlara da yol verməməlidir. Bu, həyatdır. Onun həyatı çox ahəngdardır. Yəqin, onun xoşbəxtliyi də bundadır ki, özünün bax bu cür strukturu ilə həmahəng yaşayır.*

Arif Paşayev



O, hər zaman xalqımızın mövqeyindən çıxış edərək Azərbaycan üçün çox böyük işlər görüb və bu işlərin altına imzasını atıb. O, xeyirxah işləri ilə kimliyini təsdiqləyib və Azərbaycan tarixinə silinməz portretini həkk edib. Milli və bəşəri ideallara bağlı olması, humanistlik və düzgünlüyü, insanlara qayğı, həssas münasibət və təmənnasız xidməti fəaliyyətinin əsas kredosu hesab etməsi onun zəngin mənəviyyatından xəbər verir. Onun portretinin əsas cizgilərini mərhəmət, insansevərlik, səmimiyyət, təvazökarlıq təşkil edir. Mehriban xanımın çoxşaxəli fəaliyyətinin hər bir səhifəsi özlüyündə onun insani keyfiyyətlərini aydın təcəssüm etdirir. Onun hər bir işi cəmiyyətdə yüksək mənəvi ideallarin daha da möhkəmlənməsinə, mədəniyyətlər- və sivilizasiyalararası dialoqun təşviqinə, insanlara mərhəmət və xeyirxahlıq kimi ali dəyərlərin aşılanmasına yönəlib. O, hər bir insanın probleminə əsl vətəndaş təəssübkeşliyi ilə yanaşaraq, doğma xalqına xidmət edən nəcib əməllər sahibinə çevrilib. Bu gün o, xalqını sevdiyi qədər xalqı tərəfindən sevilən bir şəxsiyyətdir.



# QEYDLƏR

1. İTAR-TASS-ın Moskvada çıxan həftəlik "Exo planetı" jurnalına müsahibəsindən. Xalq qəzeti.- 2009.- 20 mart.- S.2.
2. "Exo" qəzetinə müsahibədən. "Exo" qəzeti. 31 dekabr 2010-cu il.
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Ölkəmizin birinci xanımı (2003-2008), VI fəsil. S. 124.
4. İTAR-TASS-ın Moskvada çıxan həftəlik "Exo planetı" jurnalına müsahibəsindən. Xalq qəzeti.- 2009.- 20 mart.- S. 2.
5. "Xeyirxah ənənələrin davamçısı". Azərbaycan.- 2010.- avqust.- S. 3.
6. Mehriban Əliyeva – birinci xanımın PORTRET cizgiləri. http://modern.az
7. N.Əliyeva. Əbədiyaşarlıq fəlsəfəsi. Elm və təhsil. Bakı. 2013. S. 484.
8. «Baku" jurnalına müsahibəsindən. 27 may 2009-cu il. http://www.mehriban-aliyeva.org
9. "İzvestiya" qəzetinə müsahibəsindən. 26 may 2005-ci il. http://www.mehriban-aliyeva.org
10. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Ölkəmizin birinci xanımı (2003-2008), VI fəsil. S. 44.
11. Heydər Əliyev Fondunun fəaliyyət fəlsəfəsini yalnız bir ideya və amal təşkil edir: insanlara təmənnasız qayğı, cəmiyyətə xidmət! 26 avqust 2011-ci il. http://m.azertag.com
12. AzərTAc-a müsahibəsindən. http://www.mehriban-aliyeva.org
13. Birinci xanım. Azərbaycan.- 2014.- 22 may.- S.4.
14. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Ölkəmizin birinci xanımı (2003-2008), VI fəsil. S. 223
15. AzərTAc-a müsahibəsindən. 19 mart 2008-ci il. http://www.mehriban-aliyeva.org
16. AzərTAc-a müsahibəsindən. 19 mart 2008-ci il. http://www.mehriban-aliyeva.org
17. Azərbaycanın beynəlxalq nüfuzunu yüksəldən şərəfli missiya. "Azərbaycan".-2011.-13 oktyabr.-N 226.-S.14.
18. Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya "2005-ci ilin adamı" mükafatının təqdim edilməsi mərasimindəki nitqindən. 31 yanvar 2006-cı il. http://www.mehriban-aliyeva.az
19. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Fondunun 10 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqindən. 10 may 2014-cü il. http://www.president.az
20. Heydər Əliyev Fondunun "Gülüstan" sarayında uşaqlar üçün təşkil etdiyi bayram şənliyindəki nitqindən. 29 dekabr 2008-ci il. http://heydar-aliyev-foundation.org
21. Raca Əmir Mahmud Batti. Azərbaycanın zəlzələdən zərər çəkmiş şagirdlərə dəstəyi. "The Pakistan Observer".
22. Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya "2005-ci ilin adamı" mükafatının təqdim edilməsi mərasimindəki nitqindən. 31 yanvar 2006-cı il. http://www.mehriban-aliyeva.az
23. "Azərbaycanda uşaqların müdafiəsi islahatı" üzrə milli konfransındakı nitqindən. 22 oktyabr 2009-cu il. http://www.heydar-aliyev-foundation.org
24. "İzvestiya" qəzetinə müsahibəsindən. 26 may 2005-ci il. http://www.mehriban-aliyeva.org
25. Heydər Əliyev Fondunda talassemiya problemlərinə həsr olunmuş dəyirmi masadakı nitqindən. 8 fevral 2005-ci il. http://www.heydar-aliyev-foundation.org
26. "İzvestiya" qəzetinə müsahibəsindən. 26 may 2005-ci il. http://www.mehriban-aliyeva.org

27. N.Əliyeva. Əbədiyaşarlıq fəlsəfəsi. Elm və təhsil. Bakı. 2013. S. 92
28. "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forumdakı nitqindən. 11 iyun 2008-ci il. http://www.heydar-aliyev-foundation.org
29. N.Əliyeva. Əbədiyaşarlıq fəlsəfəsi. Elm və təhsil. Bakı. 2013. S. 92
30. Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması" mövzusunda VII konfransındakı nitqindən. http://www.heydar-aliyev-foundation.org
31. "İzvestiya" qəzetinə müsahibəsindən. 26 may 2005-ci il. http://www.mehriban-aliyeva.org
32. Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda Azərbaycan dili fakültəsinin açılış mərasimindəki nitqindən. http://www.heydar-aliyev-foundation.org
33. Azərbaycan Prezidenti İlham Əliyevin Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya UNESCO-nun xoşməramlı səfiri adının verilməsi mərasimindəki nitqindən. http://www.heydar-aliyev-foundation.org
34. "Muğam Aləmi" Beynəlxalq Muğam festivalı çərçivəsində elmi simpoziumun açılışındakı nitqindən. 18 mart 2009-cu il. http://www.heydar-aliyev-foundation.org
35. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Ölkəmizin birinci xanımı (2003-2008), VI fəsil. S. 24
36. Humanizm və xeyirxahlıq missiyası. Bakı. -"Nurlan" - 2007. S. 14
37. UNESCO-nun xoşməramlı səfirlərinin illik iclasındakı nitqindən. 3 mart 2005-ci il. http://www.heydar-aliyev-foundation.org
38. Ülviyyət və idrakın təntənəsi. "Mədəniyyət".-2008.-23 oktyabr.-№83.-S.4-5
39. N.Əliyeva. Əbədiyaşarlıq fəlsəfəsi. Elm və təhsil. Bakı. 2013. S. 499
40. Humanizm və xeyirxahlıq missiyası. Bakı. -"Nurlan" - 2007. S. 21
41. "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda beynəlxalq konfransdakı nitqindən. 19 aprel 2006-cı il. http://www.heydar-aliyev-foundation.org
42. "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forumdakı nitqindən. 11 iyun 2008-ci il. http://www.heydar-aliyev-foundation.org
43. "Reims azərbaycanlıları qəbul etmişdir" məqaləsi. Fransanın "L' Union" qəzeti. 6 iyun 2013-cü il. http://www.lunion.presse.fr
44. "Heydər Əliyev Fondunun təşəbbüsü ilə Müqəddəs Roma katakombalarında həyata keçirilən bərpa işləri" məqaləsi. İtaliyanın "Uni mondo" portalı. 29 aprel 2014-cü il. http://www.unimondo.org
45. "Heydər Əliyev Fondu Müqəddəs Roma katakombalarını bərpa edir" məqaləsi. İtaliyanın La Repubblica portalı. 29 yanvar 2014-cü il. http://ricerca.repubblica.it
46. "Mehriban Əliyeva - Qəlbində Azərbaycan: birinci xanım daha yaxşı dünya üçün çalışır" məqaləsi. 16 aprel 2014-cü il. http://cfi.co
47. Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın seçki kampaniyası dövründə Bakının Əzizbəyov (indiki Xəzər) rayonunun Şüvəlan, Zirə, Türkan, Binə qəsəbələrində seçicilərlə görüşləri. 03 noyabr 2005. http://www.mehriban-aliyeva.org
48. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. ISESCO-nun xoşməramlı səfiri. V fəsil. S. 21
49. Xoşməramlı, xoşniyyətli Azərbaycanın birinci xanımının bütün fəaliyyəti insanlar üçün xeyirli işlər görməyə yönəlib. Azərbaycan.- 2007.- 3 iyun.-S. 3-4.
50. N.Əliyeva. Əbədiyaşarlıq fəlsəfəsi. Elm və təhsil. Bakı. 2013. S. 298
51. Milli Məclis Mehriban Əliyevanın hazırladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsini təsdiq etmişdir. 8 may 2007-ci il. http://www.mehriban-aliyeva.org
52. İnsan hüquq və azadlıqlarının etibarlı hamisi. Azərbaycan.- 2010.- 25 avqust.- S. 3.
53. İnsan hüquq və azadlıqlarının etibarlı hamisi. Azərbaycan.- 2010.- 25 avqust.- S. 3.

54. “Azərbaycan” internet portalının təqdimat mərasimindəki nitqindən. 22 iyul 2005-ci il. http://www.heydar-aliyev-foundation.org
55. Azərbaycanla Fransa arasında diplomatik əlaqələrin qurulmasının 20 illiyinə həsr olunmuş mərasimdəki nitqindən. 27 oktyabr 2012-ci il. http://www.heydar-aliyev-foundation.org
56. İlham Əliyev Quba Soyqırımı Memorial Kompleksinin açılışında iştirak etmişdir. 18 sentyabr 2013-cü il. http://www.president.az
57. İlham Əliyev Bakıda Milli Gimnastika Arenasının açılışında iştirak etmişdir. 16 aprel 2014-cü il. http://www.president.az
58. Azərbaycan gimnastikası bu gün. 22 iyul 2003-cü il. http://www.mehriban-aliyeva.org
59. “Azərbaycanda uşaqların müdafiəsi islahatı” üzrə milli konfransındakı nitqindən. 22 oktyabr 2009-cu il. http://www.heydar-aliyev-foundation.org
60. “İzvestiya” qəzetinə müsahibəsindən. 26 may 2005-ci il. http://www.mehriban-aliyeva.org
61. İTAR-TASS agentliyi və “Rossiya 24” telekanalına müsahibəsindən. 26 dekabr 2011-ci il. http://president.az
62. Nazirlər Kabinetinin 2009-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Prezident İlham Əliyevin yekun nitqindən. 22 aprel 2009-cu il. http://archive.president.az